

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 24 (866) ■ 30 iyun 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyevin Polşaya rəsmi səfəri

**İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasına rəsmi səfər edib. Azərbaycanın və Polşanın dövlət bayraqlarının dalğalandığı Varşavanın «Okeçie» hərbi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Azərbaycan Prezidentini Polşanın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşılayıblar.**



İyunun 27-də Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyevi Polşa Prezidenti Andjey Duda qarşılayıb. Polşanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Andjey Dudaya təqdim olunub. Dövlət başçıları fəxri qarovul dəstəsinin önündən keçiblər.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra prezidentlərin təkbətək görüşü keçirilib. İki ölkə arasında əməkdaşlığın uğurla inkişaf etdiyinin qeyd edildiyi görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərinin münasibətlərimizin inkişafı baxımından önəmi xüsusi vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibli görüşdə Polşa Prezidenti ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirib, qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyini qeyd edib. İqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirən Prezident Andjey Duda bu sahədə imkanların araşdırılması baxımından Azərbaycan-Polşa biznes forumunun və imzalanan sənədlərin əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycan-Polşa siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib, bu səfərin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını, ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün münbit şərait olduğunu vurğulayıb. Söhbət zamanı nəqliyyat, dəmir yolu, energetika, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turizm, ərzaq, tikinti, əczaçılıq sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün iki ölkə arasında sənədlərin imzalanması mərasimi olub. Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Polşa Prezidenti Andjey Duda bildirib ki, ölkələrimiz arasında çox yaxşı əlaqələr mövcuddur: «Çox istərdik ki, Azərbaycan ilə Polşa arasında birbaşa dəmir yolu xətti Gürcüstan və Ukrayna ərazilərindən keçərək yaradılsın. Bu, olduqca əhəmiyyətlidir. Çünki bunun sayəsində bizim nəqliyyat dəhlizimiz, əslində, Çinin irəli sürdüyü «Bir kəmər, bir yol» layihəsi tam həyata keçirilir. Biz də bu layihənin bir hissəsiyik və bizim, həmçinin Hindistana və İrana çıxışımız təmin olunur. Hesab edirik ki, biz bu perspektiv sayəsində, həmçinin ticari münasibətlərimizi və təmaslarımızı genişləndirəcəyik. Bizim qarşımızda həm Polşa, həm Azərbaycan üçün böyük imkanlar açılacaq». Prezident İlham Əliyev bəyanatla çıxış edərək bildirib ki, biz bu gün yenidən Polşa-Azərbaycan əlaqələrinin inkişafına təkan veririk: «Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır. O, əslində, Prezident Kaçinskinin dövrünün məntiqi davamıdır. Bu gün biz bir çox məsələlər ətrafında səmimi fikir mübadiləsi apardıq. Bir daha gördük ki, Polşa və Azərbaycan iki dost ölkədir. Biz dostluğa və iqtisadi əməkdaşlığa dayik və əlaqələrimizin inkişafı üçün birgə səylər göstərəcəyik».

Prezident İlham Əliyev iki ölkə arasında imzalanmış strateji tərəfdaşlığa və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannaməni xüsusi vurğulayaraq qeyd edib ki, bu, çox ciddi siyasi sənəddir: « Bu bəyannamə əlaqələrimizin, demək olar ki, bütün istiqamətlərini, həmçinin siyasi, iqtisadi, enerji, nəqliyyat məsələlərini ehtiva edir. Bu bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da deyilir və göstərilir ki, bu münaqişə ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bu ədalətli mövqeyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əlavə etmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı erməni işğalından iyirmi ildən çoxdur ki, əziyyət çəkir. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bu tezislər Birgə Bəyannamədə öz əksini tapmışdır».

Azərbaycan Prezidenti ölkələrimiz arasında nəqliyyat və enerji layihələri barədə məlumat verib, «Cənub Qaz Dəhlizi» layihəsinin Avropa üçün əhəmiyyətinə toxunub, həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin iki ölkə arasında iqtisadi əməkdaşlığa verdiyi töhfəni vurğulayıb.

İyunun 27-də Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib. Prezidentlər İlham Əliyev və Andjey Duda biznes forumun açılış mərasimində çıxış ediblər. Polşanın dövlət başçısı qeyd edib ki, hər iki ölkə arasında iqtisadi münasibətlər genişlənməkdədir, əməkdaşlığın çox geniş perspektivləri var. Ölkələrimiz tarixi İpək Yolunun bərpasında xüsusi rol oynaya bilər.

Prezident İlham Əliyev vurğulayıb ki, Polşa və Azərbaycan arasında yüksək səviyyəli siyasi əlaqələr yeni imkanlara yol açır. İqtisadi əlaqələrə təkan vermək üçün və həmçinin ixrac potensialımızın yaxşı mənzərəsinin formalaşmasına dair əlverişli fürsətlər var. Kənd təsərrüfatı, sənaye, turizm, əczaçılıq və böyük potensialı olan digər sahələrdə qarşılıqlı əlaqələrin artırılması yaxşı nəticələrə gətirib çıxaracaqdır.

Səfər çərçivəsində Prezidenti İlham Əliyev Polşa Respublikası Senatının marşalı Stanislav Karçevski ilə də görüşüb. Parlamentlərarası əməkdaşlığa böyük önəm verdiklərini diqqətə çatdıran S.Karçevski Azərbaycanın nəqliyyat dəhlizi imkanlarından istifadə edilməsinin iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Söhbət zamanı Azərbaycan ilə Polşa arasında siyasi, iqtisadi, humanitar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələri ətrafında fikir mübadiləsi aparılıb.

İyunun 28-də Azərbaycan Prezidenti İlham Əliyev Varşavada Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüşüb. B.Şidlo Polşanın Azərbaycanın regionda rolunu yüksək qiymətləndirdiyini, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsi istiqamətində səylərini dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyini söyləyib. Polşa ilə ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev qarşılıqlı ticarət dövriyyəsinin ölkələrimizin mövcud potensialını tam əks etdirmədiyini, onun artırılması üçün əsas istiqamətlərin müəyyənləşdirilməsində Azərbaycanın maraqlı olduğunu bildirib.



## Formula-1 Azərbaycan Qran-Prisi uğurla başa çatıb

Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Azərbaycan Qran-Prisi iyunun 25-də uğurla başa çatıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsinin - Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıblar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Burada Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Onlar pitstop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Sonra Formula-1 Azərbaycan Qran-Prisinin final mərhələsinə start verilib. Hər birində iki pilot olmaqla komandaların bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən, start xəttinə ən yaxın məsafədə «Mercedes»in pilotları Luis Hamilton və Valtteri Bottas dayanıblar. İlk üçlüyü «Ferrari»nin pilotu Kimi Raykonnen tamamlayıb. Beləliklə, pilotlar qalib adı uğrunda mübarizəyə başlayıblar. Bakı trekinin uzunluğu 6 kilometr, ümumi məsafəsi isə 306 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vurublar.

İyunun 24-də Formula-1 azarkeşləri Azərbaycan Qran-Prisinin ikinci günündə də maraqlı idman mübarizəsinin şahidi olublar. Bu turdan sonra Formula-1 Azərbaycan Qran-Prisinin start düzülüşü müəyyənləşib. Formula-1 Azərbaycan Qran-Prisinin qalibi «Red Bull Racing» komandasının üzvü Daniel Rikkiardo olub. Pilot məsafəni 2 saat 3 dəqiqə 55 saniyəyə qət edib. İkinci yerə «Mercedes» komandasının üzvü Valtteri Bottas çıxıb. Üçüncü yerdə isə «Williams» komandasının pilotu kanadalı Lans Strol qərarlaşıb. Konstruktorlar kubokunun sahibi isə «Red Bull Racing» komandası qərarlaşıb. Qaliblərə mükafatlar təqdim olunub.

Formula-1 Azərbaycan Qran-Prisinin çempionu Daniel Rikkiardoya kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim edib. Konstruktorlar kubokunu «Red Bull Racing» komandasının nümayəndəsinə birinci xanım Mehriban Əliyeva təqdim edib. İkinci yerin sahibi «Mercedes»in pilotu Valtteri Bottasa kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan «Williams»ın sürücüsü Lans Strola isə mükafatı Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim ediblər.

## Tıxacların aradan qaldırılması məqsədilə...

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Yusif Səfərov küçəsinə paralel salınan yeni yolun açılışında iştirak edib.

«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yeni yolun texniki göstəriciləri barədə məlumat verib. Bildirilib ki, üç hərəkət zolaqlı yolun inşası zamanı layihəyə uyğun olaraq yolboyu maneələr sökülüb, kommunikasiya xətləri köçürülüb. Piyadaların təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yolun hər iki tərəfində səkilər salınıb, müasir işıqlandırma dirəkləri qoyulub. Layihə çərçivəsində burada avtobus dayanacağı quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə, eyni zamanda, qısa vaxtda yerinə yetirilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da dövlətimizin başçısı tıxacların aradan qaldırılmasında yeni yolun əhəmiyyətini vurğulayıb. Bu layihənin icrası yeni yolların salınması ilə bağlı Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlərdən biridir. Eyni zamanda, bu cür tədbirlər paytaxtımızın yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, Bakı şəhərində tıxacların aradan qaldırılması baxımından da çox önəmlidir. Belə ki, yeni yol avtonəqliyyat vasitələrinin birbaşa Yusif Səfərov küçəsinə daxil olmadan Heydər Əliyev prospektindən Kövkəb Səfərəliyeva küçəsinə, oradan da Dilarə Əliyeva küçəsi ilə şəhərin mərkəzinə doğru hərəkət etməsinə əlverişli imkan yaradır. Həmçinin Heydər Əliyev prospektindən gələn sürücülər Yusif Səfərov küçəsinə daxil olmadan metronun 28 May stansiyası və Heydər Əliyev Sarayı istiqamətinə rahat hərəkət edəcəklər. Beləliklə, bu yolun istifadəyə verilməsi Yusif Səfərov küçəsində tıxacların yaranmasının qarşısını alacaq.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

## Paytaxtımız qonaqları valeh edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Kozakı qəbul edib. Görüşdə paytaxtımızda təşkil olunan Formula-1 yarışlarının beynəlxalq səviyyədə böyük maraq doğurduğu bildirilib və bu yarışların çox yüksək səviyyədə təşkil edildiyi vurğulanıb. Dmitri Kozak Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd edib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Formula-1-in sədri və icraçı direktoru Çeyz Kerini, Formula-1 Motorsportun direktoru Rous Braunu və Formula-1-in kommersiya və marketinq üzrə direktoru Şon Bratçesi qəbul edib. Formula-1 yarışlarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı yarışların dünyada böyük sayda tamaşaçı auditoriyası tərəfindən izlənildiyini vurğulayıb.

Bakıda olmaqdan məmnunluğunu ifadə edən və zəngin təəssüratlarının olduğunu deyən Formula-1-in sədri və icraçı direktoru Çeyz Keri paytaxtımızın çox gözəl və möhtəşəm şəhər olduğunu bildirib. O, şəhəri gəzməkdən və Bakının gözəl mənzərəsini seyr etməkdən məmnunluğunu ifadə edib.

### BU NÖMRƏMİZDƏ

AZƏRBAYCAN DÖVLƏTİ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMLƏRİNƏ XÜSUSİ HƏSSASLIQLA YANAŞIR 2

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN KEŞİYİNDƏ... 2

AZƏRBAYCANDA ÜMUMİ HESABATLILIQ STANDARTININ TƏTBİQİNƏ BAŞLANILIR 3

TƏHSİL VƏ TƏLİMİN DOĞRU ÜNVANI 4

# Azərbaycan dövləti qaçqın və məcburi köçkünlərin problemlərinə xüsusi həssaslıqla yanaşır

İyunun 27-də qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinə Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva mərasimdə iştirak edib.



Məcburi köçkünləri müqəddəs Ramazan bayramı münasibətilə təbrik edən Mehriban Əliyeva Ramazan ayının dünya müsəlmanlarını sülh və birlik yoluna, xeyirxah əməllərə, saf niyyətlərə, mərhəmətə və mənəvi kamilliyə dəvət etdiyini bildirib: «Ramazan ayı bizim hər birimizi ehtiyacı olan, çətinliklərlə üzləşən insanlara yardım etməyə dəvət edir. Bugünkü görüşümüz bu baxımdan rəmzi məna daşıyır. Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən soydaşlarımızın bir qismi bu gün yeni mənzillərlə təmin olunur, onların yaşayış şəraiti yaxşılaşır. Sizin həyatınızda yeni dövr başlayır. Sizin həyat tərziniz yaxşılaşacaq. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, yeni mənzillərinizdə sizə xoşbəxt ömür arzulayıram».

Ermənistanın 20 ildən çoxdur ki, davam edən işğalçı siyasəti nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkünün mövcud olduğunu deyən Birinci vitse-prezident bildirib ki, bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir: «İyirmi ildən çoxdur ki, bu sahədə ardıcıl olaraq bütün lazımi tədbirlər həyata keçirilir, addımlar atılır. Baxmayaraq ki, müstəqilliyimizin ilk illərində dövlətimiz böyük çətinliklərlə üzləşmişdir, Azərbaycan hökuməti ölkəmizdə mövcud olan bütün çadır şəhərciklərini qısa bir zamanda ləğv etdirmişdir. Azərbaycanda məcburi köçkün ailələri üçün 100-dək müasir yaşayış kompleksi inşa olunmuşdur. Bu qəsəbələrdə bütün lazımi infrastruktur yaradılmışdır. Qəsəbələr məktəb və bağçalarla təmin olunmuşdur. Dörd yüz mindən çox məcburi köçkün iş yeri ilə təmin edilmişdir. Bu gün də soydaşlarımızın işlə təmin olunması sahəsində dövlət proqramları həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, bu, Azərbaycan dövləti üçün ən ağır, ən vacib problemdir. Azərbaycan dövləti bu problemin həlli üçün bütün lazımi tədbirləri görür və bu siyasət bundan sonra da davam etdiriləcəkdir».

Mehriban xanım Əliyeva qeyd edib ki, ölkədə sosial məsələlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə diqqətlə yanaşılır: «Birinci vitse-prezident vəzifəmdə ilk müşavirəm məhz bu problemlərin həllinə yönəlmişdir. Bizim qarşımızda duran məqsəd ilkin mərhələdə Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı, yarımçıq tikilmiş binalarda məskunlaşmış dörd min məcburi köçkün ailəsini yeni mənzillərlə təmin etməkdir. Bunun üçün bütün lazımi göstərişlər verilib, artıq tədbirlər görülür və əminəm ki, biz bu məqsədimizə nail olacağıq. Bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməli qoyuldu. Bu qəsəbədə bütün lazımi infrastruktur - tibb məntəqəsi, 600 şagird yerlik məktəb, uşaq bağçası inşa olunacaq. Burada artıq inşaat işləri başlayıb. Əminəm ki, işlər qısa bir zamanda başa çatdırılacaq və bu gün çox ağır vəziyyətdə yaşayan daha 1026 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq. Azərbaycan dövləti tərəfindən bu tədbirlərin icrası üçün, ümumilikdə, 6 milyard manatdan çox vəsait ayrılmışdır. Bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış vəsait nisbət etibarilə dünyanın ən yuxarı göstəriciləri arasındadır. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur».

**Arzumuz budur ki, işğaldan azad olunan kəndlərimiz, şəhərlərimiz bərpa edilsin, yeni qəsəbələr salınsın və insanlar normal həyat tərzinə qayıtsınlar**

Azərbaycanın Birinci vitse-prezidenti bildirib ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yararsız binada və Xətai rayonunda yarımçıq tikilmiş binada məskunlaşmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülür: «Məhz iş adamlarının yardımı ilə bu gün 214 ailənin yaşayış şəraiti yaxşılaşacaq. Fürsətdən istifadə edərək, həmin şirkətlərə dərin minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu, çox təqdirəlayiq bir haldır. Ümidvaram ki, digər iş adamları, ölkəmizdə fəaliyyət göstərən digər biznes strukturları da gələcəkdə bu təşəbbüsə qoşulacaqlar. Bu, bizim cəmiyyətimizin birliyinin göstəricisidir, eyni zamanda, Azərbaycanın ən gözəl ənənələrindən biri olan xeyriyyəçilik ənənəsinin davamıdır».

Ölkəmizdə fəaliyyət göstərən biznes strukturlarının, iş adamlarının, ümumilikdə özəl sektorun sosial məsuliyyət haqqında ciddi düşünməli və cəmiyyətimizi narahat edən problemlərin həllində fəal iştirak etməli olduqlarını diqqətə çatdıran Mehriban xanım xüsusilə hər birimiz üçün ən ağır problem olan qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq işində iştirak etməli olduqlarını vurğulayıb, Azərbaycan dövlətinin öz vətəndaşlarına, böyük çətinliklərlə üzləşən qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşdığını, qayğı göstərdiyini bildirib: «Hər bir azərbaycanlının ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. Hamımızın arzusu budur ki, hər bir qaçqın və məcburi köçkün doğma yurduna, doğma torpağına qayıtsın. Arzumuz budur ki, işğaldan azad olunan kəndlərimiz, şəhərlərimiz bərpa edilsin, yeni qəsəbələr salınsın və insanlar normal həyat tərzinə qayıtsınlar. Dövlətimiz bunun üçün əlindən gələni edir. Biz isə bu yolda birlik nümayiş etdirməliyik və inanmalıyıq ki, qarşımızda duran bütün məqsədlərə mütləq çatacağıq».

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Masazır qəsəbəsində məcburi köçkün ailələri üçün yeni mənzillərdə yaradılan şəraitlə tanış olub. Şəhid ailəsi Ulduzə Xocayevanın mənzilində olan Mehriban xanım ailə üzvlərini bu münasibətlə təbrik edib.

Qeyd edək ki, qəsəbədə «Yeni Bakı» yaşayış kompleksində 164 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub. Bundan başqa, Mehdiabad qəsəbəsindəki Binəqədi Gənclər şəhərciyində 50 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilib. Mənzillər təmirlidir və mətbəx mebelləri ilə təchiz olunub. Ümumilikdə sözügedən 214 mənzil Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki «Energetika» pansionatında yararsız binada və Xətai rayonunun Gəncə prospektindəki qəzalı vəziyyətdə olan binada məskunlaşan məcburi köçkünlər üçün nəzərdə tutulub.

# Milli-mənəvi dəyərlərimizin keşiyində...

Vergilər Nazirliyinin Tədris Mərkəzində Azərbaycan Universiteti və Mərkəzin birgə təşkilatçılığı ilə «Milli-mənəvi dəyərlərin qorunması Heydər Əliyevin amalı idi» mövzusunda V beynəlxalq elmi konfrans keçirilib.



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü və hakimiyyətə qayıdışının 24-cü ildönümünə həsr olunmuş konfransda ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamızın inkişafına verdiyi misilsiz töhfələr, milli-mənəvi dəyərlərin qorunmasında xidmətləri və iqtisadi sahədə əldə edilən uğurlar barədə çıxışlar dinlənilib. Tədbirdə iqtisadçı alimlər, dövlət qurumlarının əməkdaşları, ictimai təşkilatların nümayəndələri, Tədris Mərkəzinin mütəxəssisləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov bildirib ki, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin əsl himayədarı olub: «Ulu öndər deyirdi ki, xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. O, xalqımızın mənəvi simasına güzgü tutan dəyərlərin təbliğini milli ideologiyanın vacib və zəruri komponentlərindən biri kimi önə çəkir, mədəniyyəti milli dövlətçilik məfkurəsinin başlıca tərkib hissələrindən biri sayırdı. Xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan Heydər Əliyev milli mənsubiyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, onların ümumbəşəri dəyərlərlə sintezində və hər bir insanın inkişafının təmin olunmasında misilsiz xidmətlər göstərib».

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva bildirib ki, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında və gələcək nəslə çatdırılmasında müstəsna xidmətləri vardır: «Ulu öndərin müəyyən etdiyi zəngin dəyərlər, eləcə də azərbaycançılıq ideologiyası dünyada çoxmədəniyyətliliyin nümunəsi kimi tanınan Azərbaycanın imicinin daha da möhkəmlənməsinə səbəb olub».

Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd edib ki, milli-mənəvi dəyərlər xalqın vizit kartı, mənəvi zənginləşmə mənbəyidir. Heydər Əliyev həyatının bütün dövrlərində xalqın azərbaycançılıq ruhunda tərbiyə olunmasında böyük rol oynayıb. Dahi şəxsiyyət 1970-80-ci illərdə xalqın mənəvi yaddaşının təzələnməsində müstəsna xidmətlər göstərib. Bunun sayəsində indi Azərbaycan dünyada multikulturalizmin əsl ünvanına çevrilib.

Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor Əvəz Ələkbərov qeyd edib ki, Heydər Əliyev əsl azərbaycanlı kimi milli-mənəvi dəyərləri fəaliyyətinin ana xəttinə çevirmişdi. Onun apardığı islahatlarda, iqtisadi və sosial proqramlarda Azərbaycanın milli mənafeyi üstünlük təşkil edir, milli dəyərlər əsas götürülürdü. Sovet hakimiyyəti illərində, Heydər Əliyevin birinci hakimiyyəti dövründə respublikada iri sənaye müəssisələrinin yaradılması, milli kadrların önə çəkilməsi, elm və təhsil sahəsində peşəkar kadrların yetişdirilməsi Azərbaycanın inkişafında mühüm rol oynamışdı: «Ümummilli liderin gərgin əməyi sayəsində xalqın mənəvi yüksəlişi baş verdi, mədəni intibah sosial inkişafla həmahənglik təşkil etdi, Azərbaycan Avropa ilə Asiya, Qərb ilə Şərq arasında mədəniyyət körpüsünə çevrildi».

**Heydər Əliyevin müəyyən etdiyi zəngin dəyərlər, eləcə də azərbaycançılıq ideologiyası dünyada çoxmədəniyyətliliyin nümunəsi kimi tanınan Azərbaycanın imicinin daha da möhkəmlənməsinə səbəb olub**

Dini Qurumlarla İşlər üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, milli-mənəvi dəyərlər xalqın zəngin xəzinəsidir: «Böyük ideoloq və strateq olan Heydər Əliyev milli-mənəvi dəyərlərə İslamdan qaynaqlanan, kökü İslama bağlı olan dəyərlər kimi yanaşırdı. Ulu öndər vurğulayırdı ki, İslam bizim üçün təkcə din deyil, eyni zamanda mədəniyyət, mənəviyyat deməkdir. Məhz onun rəhbərliyi dövründə Azərbaycanın milli özünəqayıdışı təmin olundu, İslam milli məfkurəmizin, ideologiyamızın, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi qorundu. Dünyəvi dövlət olan Azərbaycanda dövlət-din münasibətlərində hüquqi qanunvericilik bazası formalaşdırıldı. Bu gün dövlətimiz bütün dinlərə eyni münasibət sərgiləyir, tolerant və multikultural dəyərləri təbliğ və təşviq edir: çünki multikultural dəyərlərə sahib olmayan cəmiyyətdə sabitliyin olması mümkün deyil».

**Ümummilli lider 1970-80-ci illərdə xalqın mənəvi yaddaşının təzələnməsində müstəsna xidmətlər göstərib**

YAP Siyasi Şurasının üzvü, «İki sahil» qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, kulturoloq Fuad Məmmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri Rövşən Quliyev, Anadolu Universitetinin professoru Cokan Tunc çıxış edərək Heydər Əliyevin həyata keçirdiyi siyasi, demokratik və iqtisadi islahatlardan, milli-mədəni sahədə görülən işlərdən danışıblar.

Sonra konfrans işini bölmələrdə davam etdirib. BDU-nun professoru Anar İskəndərovun moderatorluğu ilə keçirilən «Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması» məsələlərinə həsr olunmuş birinci bölmədə ali təhsil müəssisələrinin alim və professorları tərəfindən «Heydər Əliyevin Azərbaycan tarixində yeri», «Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir», «Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti tarixinə verdiyi qiymət milli-mənəvi dəyərlərə sahib çıxmaq nümunəsidir», «Milli qurtuluşdan intibaha», «Heydər Əliyev və folklorumuz», «Milli ideologiyanın əsas komponenti olan milli-mənəvi dəyərlərimiz», «Azərbaycanın müstəqilliyinin bərpası və dövlətçiliyinin qurulmasında Heydər Əliyev xətti», «Milli-mənəvi dəyərlərimiz Heydər Əliyev ideyaları kontekstində», «Heydər Əliyev və söz azadlığı», «Heydər Əliyev və Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması və inkişafı məsələsi», «Heydər Əliyev hüquqi dövlət quruculuğunun banisidir», «Qloballaşma və milli-mənəvi dəyərlərin qorunması», «Heydər Əliyev dövlətçilik və milli ideologiya siyasəti», «Heydər Əliyev və Azərbaycan diasporunun formalaşması», «Heydər Əliyevin dövlət quruculuğunda milli-mənəvi və dini dəyərlərin rolu» və digər mövzularda məruzələr dinlənilib.

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Zahid Məmmədov və Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımovun moderatorluğu ilə «Azərbaycanın iqtisadi inkişafı və milli-mənəvi dəyərlərin qorunması» mövzusunda keçirilən ikinci bölmədə iqtisadçı alimlər məruzələrlə çıxış ediblər. «Bank sektorunda böhran iqtisadi islahatların katalizatoru kimi», «Davamlı inkişaf və iqtisadi artım, müasir dövrdə uçot siyasətinin problemləri», «UNEC - biznes və menecment fakültəsində keyfiyyətli kadr hazırlığının prioritet istiqamətləri», «Azərbaycanda sığorta sisteminin inkişafının müasir problemləri, vergi siyasəti və iqtisadi stimullaşdırma», «Milli iqtisadiyyatın inkişaf meyilləri və vergi siyasəti», «Vergi qanunvericiliyinə könüllü əməletmənin aktual problemləri», «Vergitutmada könüllülük prinsipi və partnyorluq», «Vergi siyasətinin tətbiqinin psixoloji aspektləri», «Çirkli pulların yuyulması və dövlətin iqtisadi təhlükəsizliyi», «Milli iqtisadiyyatda mühasibat və vergi uçotunun aparılması xüsusiyyətləri», «Beynəlxalq təcrübədə aqrar sektorun vergiyə cəlb edilməsi xüsusiyyətləri» mövzuları ətrafında fikirlər bildirilib, müzakirələr aparılıb, təkliflər irəli sürülüb.

Tədbirin sonunda konfrans iştirakçılarının Prezident İlham Əliyevə müraciəti qəbul olunub.

Konfrans çərçivəsində Tədris Mərkəzi ilə Azərbaycan Universiteti arasında anlaşma memorandumu imzalanıb.

**E.CƏFƏRLİ**

# Azərbaycanda Ümumi Hesabatlılıq Standartının tətbiqinə başlanılır



Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadənin müsahibəsi

***- Zaur müəllim, maliyyə məlumatlarının daha səmərəli mübadiləsi üçün Azərbaycanda Ümumi Hesabatlılıq Standartının (CRS) tətbiqi nəzərdə tutulub. CRS nədir və bu standart hansı ölkələrdə tətbiq edilir?***

- Ümumi Hesabatlılıq Standartı (Common Reporting Standard - CRS) vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin oradakı maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanması və həmin şəxslərin rezident olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyir. Bu standart 2014-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanıb.

Maliyyə məlumatlarının mübadiləsi Avropa Şurası və OECD-nin «Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında» çoxtərəfli Konvensiyası əsasında aparılır. Azərbaycan bu Konvensiyanı 2003-cü ildə, ona düzəlişlər edilməsi haqqında Protokolu isə 2014-cü ildə imzalayıb. Konvensiya 105 ölkə ilə vergi məqsədləri üçün məlumat mübadiləsinin aparılmasına imkan verir.

Konvensiyanın 6-cı maddəsi avtomatik məlumat mübadiləsinin aparılmasını, yəni vergi ili bitdikdən sonra konvensiyanın üzvü olan bir dövlət tərəfindən digər üzv dövlətin fiziki və hüquqi şəxslərinin həmin dövlətdəki maliyyə institutlarında olan hesabları və əməliyyatları haqqında məlumatların ümumiləşdirilərək digər dövlətə göndərilməsini nəzərdə tutur. Yeni standarta əsasən, konvensiyaya üzv olan dövlətlərin səlahiyyətli orqanları «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»nı imzalamaqla, mübadiləni orada qeyd olunmuş vahid formatda aparmaq barədə razılıq əldə edirlər. Razılaşma 2014-cü ildə Berlində imzalanmaya açıq elan olunub və indiyədək 101 dövlətin səlahiyyətli orqanı həmin sənədə qoşulub.

Razılaşmaya qoşulan səlahiyyətli orqanlardan bir qismi 2017-ci ildə, digər qismi isə gələn ildən başlayaraq məlumat mübadiləsinin Ümumi Hesabatlılıq Standartına (CRS) uyğun aparılmasına hazır olduqlarını bəyan edib. Mübadiləyə hələ hazır olmayan dövlətlər, əsasən, bunun üçün lazımi daxili qanunvericilik və elektron infrastruktura malik olmayan dövlətlərdir.

***- Bu standart çərçivəsində hansı məlumatlar mübadilə olunur və hesabatda nə kimi məlumatlar öz əksini tapmalıdır?***

- CRS-ə müvafiq olaraq, illik avtomatik əsaslarda maliyyə institutlarında olan hesablar üzrə müvafiq məlumatlar, o cümlədən təqvim ilinin sonuna hesabın qalığı, il ərzində əldə edilmiş gəlirlərin ümumi məbləği və CRS ilə müəyyən olunan digər zəruri məlumatlar mübadilə ediləcək.

Nazirlər Kabinetinin 3 iyun 2015-ci il tarixli qərarı ilə xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi hədləri və qaydaları artıq təsdiq edilib. Həmin sənəddə maliyyə institutları tərəfindən elektron hesabatda əks olunmalı məlumatlar, e-hesabatın Vergilər Nazirliyinə təqdim edilməsi forması və müddəti, e-hesabatın dəyişdirilməsi və digər məsələlər öz əksini tapıb.

***- Ölkəmiz bundan əvvəl də oxşar bir sənəd - Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı, qısaca FATCA adlanan məlumat mübadiləsi sisteminə qoşulmuşdu. Mümkünsə, CRS və FATCA arasında əsas fərqlərin nədən ibarət olduğunu şərh edərdiniz...***

- 2015-ci ildə «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş» (Hökumətlərarası Saziş) imzalanıb və həmin sənəd 2015-ci ilin 5 noyabr tarixindən qüvvəyə minib.

FATCA Azərbaycanda olan ABŞ vətəndaşları və rezidentlərinin maliyyə hesabları barədə məlumatların ABŞ tərəfinə, eləcə də ABŞ-da olan Azərbaycan rezidentlərinin maliyyə hesabları barədə məlumatların ölkəmizə ötürülməsini nəzərdə tutur. Bu baxımdan, FATCA üzrə iki yurisdiksiya (ABŞ-Azərbaycan) arasında avtomatik məlumat mübadiləsi həyata keçirilir.

FATCA-dan fərqli olaraq, CRS Çoxtərəfli Saziş əsasında tənzimləndiyindən, tərəfdaş yurisdiksiyalarla maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsini nəzərdə tutur. Tərəfdaş yurisdiksiyaların sayı hər bir ölkənin öz seçimi əsasında müəyyənləşir və Çoxtərəfli Sazişə qoşulmuş bütün ölkələri əhatə edir.

CRS - OECD-nin Qlobal Forumu tərəfindən FATCA-nın prinsipləri əsasında hazırlanıb. Bu baxımdan, bir çox yoxlama prosedurlarına yanaşma, əsasən, eynilik təşkil edir.

***- CRS əsasında maliyyə məlumatlarının mübadiləsi zamanı bütün maliyyə institutları hesabat verməlidirmi? Hesabat verməli olan maliyyə institutlarının vəzifələri nədən ibarətdir?***

- Mövcud qanunvericiliyin müddəalarına əsasən, bank fəaliyyəti, həyatın yığım sığortası və annuitet sığortası fəaliyyəti, depozitar fəaliyyəti, qiymətli kağızların (veksellər, depozitar qəbzi və sair), törəmə maliyyə alətlərinin, xarici valyutaların məzənnə, faiz dərəcəsi və indeks alətləri, qiymətli kağızlarla ticarət və ya əmtəə üzrə fyuçerslərin müştəri üçün və ya müştərinin adından aparılan ticarət fəaliyyəti və investorların portfellərinin idarə edilməsi fəaliyyəti kimi fəaliyyətlərdən ən azı birini həyata keçirən vergi ödəyicisi maliyyə institutu hesab olunur.

Maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olan maliyyə institutları müvafiq qaydada hesabat verməlidirlər. Maliyyə institutlarının əsas vəzifəsi beynəlxalq müqavilələrin tələblərindən irəli gələrək CRS üzrə hesabat verilməli hesabları müəyyənləşdirmək, bu sahədə hərtərəfli yoxlama prosedurları tətbiq etmək və bu hesablar barədə məlumatları yuxarıda qeyd olunan qaydada müəyyən edilmiş hədlərdə və qaydada Vergilər Nazirliyinə ötürməkdir.

***- Ölkəmizdə CRS-in tətbiqinə nə vaxtdan başlanılır və Azərbaycanın digər tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsi nə vaxta planlaşdırılır?***

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»ndə ölkə hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlərlə maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması nəzərdə tutulub.

Sərəncamın icrasını təmin etmək məqsədilə «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»ya qoşulmaq barədə bəyanat imzalanıb. Razılaşmaya qoşulmaqda əsas məqsəd Çoxtərəfli Razılaşmanın məlumat mübadiləsinin aparılma müddəti və qaydasına əsasən, tərəfdaş yurisdiksiyaların rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının qalığı (dəyəri) və digər məlumatların ümumiləşdirilərək həmin yurisdiksiyalara göndərilməsi, eyni zamanda bu yurisdiksiyalarda Azərbaycan Respublikasının rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının analoji məlumatlarının mübadilə edilməsidir.

İmzalanmış bəyanata əsasən, Azərbaycanda CRS-ın tətbiqinə 1 iyul 2017-ci il tarixdən başlanılır. 1 iyula qədər maliyyə institutlarında mövcud olan hesablar «əvvəlcədən mövcud olan hesablar» sayılır. Standartın tətbiqinə başlanılan tarixdən «əvvəlcədən mövcud olan hesablar»ın hesabat verilməli hesab olub-olmadığını maliyyə institutları sərəncamlarında olan və mənbəyi bəlli olan mövcud məlumatlar əsasında müəyyən edəcəklər. 1 iyul 2017-ci il tarixdə və ondan sonra maliyyə institutlarında açılmış hesablar isə «yeni hesab» sayılır. Bu tarixdən sonra maliyyə institutlarına hesab açmaq üçün müraciət etmiş hər bir şəxs özünüqiymətləndirmə anketi dolduracaq. Qeyd olunan anket maliyyə institutları tərəfindən hesabın hesabat verilməli hesab olduğunu müəyyən etmək üçün aparılacaq araşdırmalarda istifadə olunacaq.

CRS-ə uyğun olaraq, Azərbaycanın digər tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsi 2018-ci ilin sentyabr ayında başlanılması nəzərdə tutulub.

***- CRS-ın tətbiqindən gözlənilən nəticələr nədən ibarətdir?***

- İlk növbədə, CRS-in tətbiqi vergitutma baxımından şəffaflığın artırılması və vergidən yayınmanın qarşısının alınması məqsədilə vergi məlumatlarının mübadiləsi sahəsində əməkdaşlığın gücləndirilməsinə və ümumiyyətlə, ölkələr arasında ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verəcək. Bununla yanaşı, vergi ödəyiciləri, həmçinin digər vətəndaşlar tərəfindən büdcədən yayındırılmış vergi məbləğlərinin qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi vasitəsilə büdcəyə ödənilməsinin təmin edilməsi mümkün olacaq.

Məlum olduğu kimi, bir sıra vergidən yayınmaya meyilli şəxslər dövriyyələrin gizlədilməsi, verginin tam həcmdə hesablanmaması məqsədilə ölkənin hüdudlarından kənarda yerləşən banklarda bank hesabları açır, əməliyyatlarını həmin hesablar vasitəsilə aparır və yaxud müxtəlif sxemlərdən istifadə etməklə dövlət büdcəsinə çatacaq vergiləri ödəməkdən yayınırlar. Bank hesabları barədə ölkələrarası məlumatların mübadiləsini nəzərdə tutan bu sistemin tətbiqi belə şəxslərin və onların respublikadan kənarda olan bank hesablarının müəyyən edilməsinə imkan verəcək. Bunun nəticəsində vergi orqanı Azərbaycan vətəndaşlarının respublikadan kənarda olan bank hesablarının qalıqları və digər gəlirləri barədə geniş məlumata malik olacaq ki, bu da vergidən yayınma hallarının qarşısının alınmasına, həmin şəxslərin real gəlirlərinin müəyyən olunmasına kömək edəcək.

Azərbaycan Respublikası «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»nı imzalamaqla razılaşmaya qoşulmuş digər ölkələrlə maliyyə institutlarında olan hesablar barədə məlumat mübadiləsini aparmağa açıq olduğunu bəyan etdi. Razılaşmaya əsasən, Azərbaycan Respublikasının vətəndaşlarının xaricdə olan bank hesabları barədə məlumatları almaqla yanaşı, razılaşmaya qoşulmuş digər ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasının maliyyə institutlarında olan hesabları barədə analoji məlumatları həmin dövlətlərin müvafiq orqanlarına ötürəcək. Bu da ölkəmizdə digər sahələrdə olduğu kimi, maliyyə sahəsində də şəffaflığın təmin edilməsi istiqamətində yeni bir addım olacaq.

> CRS-ə uyğun olaraq, Azərbaycanın digər tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsi 2018-ci ilin sentyabr ayında başlanılması nəzərdə tutulub

# 2017-ci ilin dövlət büdcəsinə dəyişikliklər edildi

İyunun 22-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. İclasda çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə dair izahat «Büdcə sistemi haqqında» Qanunun 23.2-ci maddəsinə uyğun hazırlanıb. Bank-maliyyə sistemində dayanıqlılığın təmin olunması, ölkənin xarici və daxili borc öhdəliklərinin tənzimlənməsi və digər zəruri dövlət vəzifələrinin xərclərinə yenidən baxılması zərurəti yaranıb. Nəzərdə tutulur ki, dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsində Mərkəzi Bankın 2015-ci ilin maliyyə nəticələrinə görə əldə edilmiş mənfəətindən ayırmalardan, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq tətbiq edilən sanksiya və cərimələrin həddinin artırılması və beynəlxalq maliyyə-kredit qurumları ilə birgə həyata keçirilən infrastruktur layihələrində Azərbaycan tərəfinin iştirak payından formalaşan gəlirlər üzrə proqnozlaşdırılan daxilolmalardan, büdcə təşkilatlarının əlavə büdcədənkənar gəlirlərindən, bir sıra xərclər üzrə tətbiq edilən azalmalar hesabına yaranan sərbəst vəsaitdən, həmçinin 2017-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığından istifadə olunsun.

Maliyyə nazirinin sözlərinə görə, 2017-ci ilin yenidən baxılacaq dövlət büdcəsinin gəlirləri gözlənilən ümumi daxili məhsulun 25,2 faizini təşkil etməklə mütləq ifadədə 16 milyard 766 milyon manat proqnozlaşdırılır ki, bu da 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 511 milyon manat və ya 3,1 faiz çoxdur. 2017-ci il dövlət büdcəsi xərclərinin artırılaraq 17 milyard 941 milyon manata çatdırılması nəzərdə tutulur ki, bu da təsdiq edilmiş dövlət büdcəsinin xərclərinə nisbətən 6,2 faiz çox olacaq.

2017-ci il dövlət büdcəsinə yenidən baxılması zamanı «Azərbaycan Beynəlxalq Bankı» Açıq Səhmdar Cəmiyyətinin sağlamlaşdırılması tədbirləri çərçivəsində bankın 2383,4 milyon ABŞ dolları məbləğində dövlətin üzərinə keçəcək borclarının ödənilməsi məqsədilə avrobondların emissiyası həyata keçiriləcək. Bununla əlaqədar olaraq, 2017-ci il üzrə qanunla təsdiq edilmiş xarici dövlət borcalmasının yuxarı həddi 4 milyard manat artırılaraq 4,5 milyard manata çatdırılacaq. Xərclərin artırılmasının əsas səbəbi dövlətə məxsus uşaq bağçalarının saxlanılması xərclərinin tənzimlənməsi, həmçinin şəhər və rayonlarda yeni tikilmiş uşaq bağçalarının istismara verilməsi üçün maliyyə təminatının yaradılması ilə bağlı olub.

2017-ci ilin yenidən baxılacaq dövlət büdcəsinin kəsiri təsdiq olunmuş göstəriciyə nisbətən 530 milyon manat artırılaraq 1 milyard 175 milyon manat səviyyəsində proqnozlaşdırılır ki, bu da cari ilin sonuna gözlənilən ümumi daxili məhsulun 1,8 faizinə bərabər olacaq.

İyun ayının 30-da Milli Məclisin plenar iclasında məsələyə baxılaraq təklif olunan dəyişikliklər qəbul edildi.

**RƏŞAD**

> Dövlət büdcəsinin gəlirləri gözlənilən ümumi daxili məhsulun 25,2 faizini təşkil etməklə mütləq ifadədə 16 milyard 766 milyon manat proqnozlaşdırılır ki, bu da 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 511 milyon manat və ya 3,1 faiz çoxdur

# Qanunazidd əməllər cinayət məsuliyyəti yaradır

Bakı şəhəri ərazisində keçirilmiş vergi nəzarəti tədbirləri zamanı alkoqollu içkilərin qanunsuz istehsalı, saxta aksiz markaları ilə markalanmış və ya aksiz markası olmadan satışını həyata keçirən obyektlər aşkar edilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən Nəsimi rayonu Asif Məhərrəmov küçəsi, ev 45 ünvanında yerləşən «Şərab evində» keçirilən vergi nəzarəti tədbiri zamanı özünü obyektin sahibi kimi təqdim edən Xəlilov Eldar İsa oğlunun qeyri-qanuni olaraq aksiz markaları ilə markalanmalı olan, lakin markalanmamış alkoqollu içkilərin və tütün məmulatlarının saxlanılması və satışının həyata keçirilməsini təşkil etdiyi aşkar edilib. Sözügedən ünvanda aparılan baxış zamanı aşkar edilmiş xeyli miqdarda aksiz markaları ilə markalanmalı olan, lakin markalanmamış alkoqollu içkilər və tütün məmulatları götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin 213-1-ci maddəsi ilə cinayət işi başlanılması üçün müvafiq sənədlər Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib.

2017-ci ilin ötən müddəti ərzində aksiz markası olmadan xeyli miqdarda aksiz markaları ilə markalanmalı olan məhsulların satışını həyata keçirən vergi ödəyicilərinin aşkar edilməsi üzrə Bakı şəhəri, Tbilisi prospektində yerləşən vergi ödəyicisi Məmmədov Osman Akif oğluna məxsus «Kübar market»də və Rəfiyev Çingiz Ölövsəd oğluna məxsus «Şərab evi №-1»də, Nəsimi və Nizami rayonları ərazisində fəaliyyət göstərən Tağıyev Ramil Rafiq oğlu, Gülmalıyeva Könül Gülalı qızı və Abbasov Elşad Telman oğluna məxsus siqaret satışı ilə məşğul olan 3 köşkdə, Xanadanova Turac Hətəm qızı və Məmmədov Natiq Əzizulla oğluna məxsus «Elbrus şərab evləri» şəbəkəsində, Sumqayıt şəhərində yerləşən, Rəhimov Ramiz Əliəsgər oğluna məxsus «Soyuz peçat» mağazasında və digər obyektlərdə çoxlu sayda analoji hallar aşkar edilərək, qanunamüvafiq tədbirlər görülüb.

Ümumilikdə, respublika üzrə 2017-ci il ərzində aksiz markaları ilə markalanmalı olan malların markalanmadan satılması, satış məqsədi ilə saxlanılması və ya istehsal binasının hüdudlarından kənara çıxarılması faktlarının aşkar edilməsi məsələləri üzrə yerli vergi orqanları tərəfindən vergi nəzarətinin həyata keçirilməsi barədə 364 qərar çıxarılıb, 349 obyektdə nəzarət tədbiri həyata keçirilib, bunlardan 265-də vergi ödəyiciləri tərəfindən 33.439,4 manat miqdarında aksiz markası olmadan malların satışının həyata keçirildiyi aşkar edilərək, nəticələri müvafiq akt və protokollarla rəsmiləşdirilməklə inzibati xəta tərkibi yaradan materiallar baxılması üçün aidiyyəti üzrə rayon (şəhər) məhkəmələrinə, cinayət tərkibi yaradan materiallar isə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib.

Vergilər Nazirliyi saxta aksiz markaları ilə markalanmış və ya aksiz markası olmadan satışı ilə bağlı nəzarət tədbirlərini davam etdirir. Nöqsan aşkar edilən şəxslərlə bağlı qanunamüvafiq tədbirlər görüləcək.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Təhsil və təlimin doğru ünvanı

«Azərbaycanın gözəl guşəsində, Şamaxı rayonunda belə mənzərəli yerdə ən müasir standartlara cavab verən Tədris Mərkəzi tikilibdir. Bu, gözəl hadisədir və Azərbaycanın ümumi inkişafı ilə bilavasitə bağlı olan məsələdir. Çünki təhsil, bilik, elm, iqtisadiyyatımızın elmi əsaslarla inkişafı bizim üçün ən vacib olan məsələlərdir və uğurumuzun səbəblərindən biridir... Vergilər Nazirliyində toplanan təcrübə çox qiymətlidir. Mən çox şadam ki, sizin nazirliyiniz müasir əsaslarla idarə olunur, müasir menecment tətbiq edilir, dünya praktikası öyrənilir. Biz elə etməliyik ki, dünya praktikasını, onun ən qabaqcıl nümunələrini Azərbaycanda tətbiq edək».

İlham ƏLİYEV,
*Azərbaycan Respublikasının Prezidenti*



15 il əvvəl fəaliyyətə başlayan Vergilər Nazirliyinin Tədris Mərkəzinin həyatında mühüm dönüş nöqtəsi bu təhsil müəssisəsinin paytaxtdan regiona - Şamaxıya köçürülməsi ilə başladı. Prezident İlham Əliyevin Şamaxıda rəsmi açılışını etdiyi Tədris Mərkəzi 2012-ci ildən öz fəaliyyətini yeni inzibati binasında davam etdirdi. Şəhərin səs-küyündən uzaq bir ərazidə, dağlarla əhatələnmiş təbiətin əsrarəngiz guşəsində yerləşən bu təhsil müəssisəsində keyfiyyət də yeniləndi. Yeni bina və yüksək infrastruktur kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, əməkdaşların bilik və bacarıqlarının artırılmasının beynəlxalq standartlara uyğun təşkil edilməsi istiqamətində inkişafın yeni mərhələsinin başlanğıcı oldu.

Paytaxtdan bura peşə hazırlığı, ixtisasartırma və təlimə gələn müdavimlərin, dinləyicilərin, seminar və konfransların iştirakçılarının ilk sözü bu olur: bura ən düzgün məkandır.

VIP otaq tikilərək dinləyicilərin və qonaqların ixtiyarına verilib.

Burada 250 nəfərlik böyük, 64 nəfərlik kiçik konfrans zalı, 40 nəfərlik imtahan otağı, hər biri 20 nəfərlik olan 3 auditoriya, Vergi Muzeyi, 150 nəfərlik yeməkxana yerləşir. Konfrans zalı hər cür zəruri avadanlıqlar və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilib. Burada ən mühüm tədbirlərin, təqdimat mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb. İndiyədək bu zalda ölkə səviyyəsində bir neçə mühüm tədbir, beynəlxalq konfrans keçirilib. Yataqxana 48 otaqdan ibarət olmaqla, sahəsi 2400 kv.m-dir. Otaqlardan 9-u 1 nəfərlik, 39-u isə 2 nəfərlikdir. Bundan başqa, 15 qonaq otağı da vardır. Yataq yerlərinin ümumi sayı 111-dir. Yaşayış korpusunun infrastrukturu çox yaxşı qurulub. Yataqxanada həkim otağı, camaşırxana və digər xidmət yerləri fəaliyyət göstərir.

Mərkəzdə müəllimlərin və ailə üzvlərinin yaşayışı üçün hər cür niki vasitələrlə iş vərdişlərinə yiyələnməsini, eləcə də daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşmasını təmin etmək üçün təhsil proseslərini həyata keçirməkdir.

Mərkəzdə təlim proseslərində iştirak edən 30 əməkdaş çalışır. Onlardan 7 nəfəri müxtəlif elmlər üzrə fəlsəfə doktorlarıdır. Mərkəzin texniki-yardımçı heyəti isə 29 nəfərdən ibarətdir. Tədris proqramları mövcud təhsil qanunvericiliyinə, vergilər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları»na, «Dövlət vergi orqanlarında müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılması Qaydaları»na, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»yə, vergi orqanlarında insan resurslarının inkişaf strategiyasına və digər normativ-hüquqi aktlara əsaslanır. Proqram hər il hazırlanaraq təsdiq olunur. Tədris proqramı 4 istiqaməti əhatə edir: peşə fəaliyyətinin ümumi əməkdaşlar təlim prosesinə təlimçi qismində cəlb olunurlar.

Təlim saatlarının ümumi həcmi 174 saat olmaqla 84 saat nəzəri və 90 saat seminar təşkil edir. Təhsilalma forması əyani, iş yerindən ayrılmaqla 24 gündür.

İxtisas sahələri (fəaliyyət sahələri) üzrə orta menecerlər və mütəxəssislər üçün ixtisasartırma proqramlarının məqsədi əməkdaşların fəaliyyət sahələri üzrə bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini təmin etməkdən ibarətdir.

Orta menecerlər və mütəxəssislərin vəzifə funksiyalarının icrası üçün tələb olunan bilik və bacarıqlar əsasında iki təlim bloku üzrə təlimlər təşkil edilir: vergi qanunvericiliyi (funksional fəaliyyət sahələrinə aid olan müddəalara üstünlük verilməklə) və fəaliyyət sahəsi (vergi inzibatçılığı və s.) üzrə.

İnnovasiyalar təlim modulu bütün təlim qrupları üçün nəzərdə tutulur. Bu modulun əsas məqsədi əməkdaşların daim dəyişən və yeniləşən iş şəraitinə uyğunlaşmasını, yeniliklərin mənimsənilməsini, idarəetmə qabiliyyətlərinin yüksəldilməsini, yeni texnologiyalar və texniki vasitələrlə iş vərdişlərinə yiyələnməsini təmin etməkdən ibarətdir. İnnovasiyalar təlim modulunun proqramlarının məzmunu vergi qanunvericiliyində və fəaliyyət sahələri üzrə vergi inzibatçılığında baş verən yeniliklərə, idarəetmə qabiliyyətlərinə, iş proseslərində tətbiq olunan yeni texnologiyalar və texniki vasitələrlə iş vərdişlərinə dair bilikləri və digər mövzuları əhatə edir.

Qısamüddətli təlimlər Vergilər Nazirliyinin struktur vahidləri və bölmələrinin müvafiq struktur vahidinə müraciəti, eləcə də müvafiq struktur vahidin təşəbbüsü ilə təlimin gündəliyi əsasında təşkil edilir və İnsan resursları departamenti tərəfindən ümumiləşdirilərək təsdiq üçün vergilər nazirinə təqdim olunur. Vergilər naziri illik təlim qrafikini təsdiq edir. 2017-ci il üçün 80 təlimin (onlayn və ənənəvi) keçirilməsi nəzərdə tutulur. Qısamüddətli təlimlər 1-5 günədək olan müddəti əhatə edir.

2016-cı ildə vergi orqanı əməkdaşlarının və vergi orqanlarına işə qəbul olunan şəxslərin sahələr üzrə sertifikatlaşdırılması qaydaları hazırlanıb, sertifikatlaşdırma komissiyasının tərkibi və sertifikatlaşdırılacaq sahələr müəyyənləşdirilib, sahələrin mükəmməl test bazası formalaşdırılıb və nazirliyin mütəxəssisləri tərəfindən ekspertizadan keçirilib. 2016-cı ilin may ayının 10-dan etibarən vergi sistemində əməkdaşların sertifikatlaşdırılması prosesinə başlanılıb. Sertifikatlaşdırmanın məqsədi dövlət vergi orqanlarının spesifik tələbatlarını nəzərə alaraq əməkdaşların müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi və bu sahələrə uyğunluğunun qiymətləndirilməsi yolu ilə vergi orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasından ibarətdir.

Sertifikatlaşdırma 2 formada həyata keçirilir (məcburi və könüllü). Məcburi sertifikatlaşdırma müvafiq fəaliyyət sahəsində işləyən əməkdaşlar üçün məcburi qaydada, könüllü sertifikatlaşdırma isə əməkdaşların işlədikləri müvafiq fəaliyyət sahəsi üzrə sertifikat almaq, malik olduqları sertifikat dərəcəsini yüksəltmək və ya digər müvafiq fəaliyyət sahəsi üzrə sertifikat almaq üçün öz təşəbbüsləri əsasında həyata keçirilir.

Sertifikatlaşdırma təlimləri «Vergi qanunvericiliyi» və «Vergi inzibatçılığı» (müvafiq fəaliyyət sahəsi üzrə) modulları üzrə 2 təlim blokundan ibarətdir. Hər bir modul üzrə təlim saatları 18 saatdan az olmamalıdır.

Üzrsüz səbəbdən tədris-mövzu planlarında nəzərdə tutulan təlim saatlarının «Vergi qanunvericiliyi» təlim modulu üzrə 35 faiz və daha çoxunda, «Vergi inzibatçılığı» (müvafiq fəaliyyət sahəsi üzrə) təlim modulu üzrə 50 faiz və daha çoxunda iştirak etməyən əməkdaşlar təlim kursunu keçməmiş hesab edilir və yenidən təlim kursuna cəlb olunur.

Qaydalara yeni bir bənd əlavə edilib. Məcburi sertifikatlaşdırmada iştirak edərək sertifikat əldə edə bilməyən əməkdaşa verilən pul mükafatı işlədiyi müvafiq fəaliyyət sahəsi üzrə sertifikat alanadək 50 faiz azaldılır. İmtahanın nəticələrinə görə sertifikat əldə edə bilməyən əməkdaşa imtahan keçirilən gündən 3 aydan tez olmamaq şərtilə işlədiyi müvafiq fəaliyyət sahəsi üzrə könüllü sertifikatlaşdırmada iştirak etmək imkanı yaradılır.

## Tədris və təlim müasir tələblərə uyğun yeniləşdirilir

Azərbaycan Prezidenti İlham Əliyev Şamaxıdakı Tədris Mərkəzinin açılışında çıxış edərkən maraqlı bir məqama toxunaraq qeyd etmişdi ki, bu binada tədris o dərəcədə keyfiyyətli olacaqdır ki, peşəkarlıq səviyyəsi binanın xarici görünüşünün səviyyəsinə uyğun gələcəkdir. Dövlət başçısı dediyi fikirlərə çox əmin idi. Mərkəzdə tədrisin keyfiyyətinin, təhsil alan müdavimlərin peşəkarlıq səviyyəsinin yüksək olacağına inanırdı. Bu inam indi özünü təsdiqləyir.

Tədris və metodika şöbəsinin rəisi Ramiz Məhərrəmovun sözlərinə görə, tədris planının başlıca hədəfi vergi sistemində çalışan əməkdaşların peşə hazırlığını və ixtisaslarını artırmaq, vergi siyasətinə dair aparılan elmi tədqiqatlar barədə onları zəruri biliklərlə təmin etməkdir. Tədris proqramında Vergi Məcəlləsinin tətbiqinin hüquqi aspektləri, vergitutmanın aktual problemləri, mühasibat uçotu və hesabatı, vergi inzibatçılığı, hüquqi və fiziki şəxslərin vergiyə cəlb edilməsi, gömrük qanunvericiliyi, kompüter biliklərinin əsasları kimi xüsusi mövzulara geniş yer verilir. Müdavimlərin texniki vasitələrlə iş vərdişlərinin, nazirliyin strateji məqsədlərinin mənimsənilməsi, şəxsi heyətin yeni islahatların həyata keçirilməsinə hazırlanması və yeni strukturlara uyğunlaşdırılması kimi məsələlər də prioritet istiqamətlərdir.

R.Məhərrəmov deyir ki, tədris prosesində son bir ildə ən əlamətdar hadisələrdən biri sertifikatlaşdırmanın başlanmasıdır: «2016-cı il mayın 2-dən dövlət vergi orqanlarında müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılması qaydalarının və bunun əsasında dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili qaydalarının qəbul edilməsi ilə əlaqədar təlim və tədris prosesində də əsaslı dəyişikliklər baş verib. Mərkəzdə peşə fəaliyyətinin ümumi əsaslarını və müxtəlif ixtisas (fəaliyyət) sahələrini əhatə edən fasiləsiz təlimlər təşkil olunur. Təlimlərin məqsədi vergi orqanlarının işinin müasir tələblərə cavab verəcək səviyyədə qurulması üçün müdavimlərin müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsindən ibarətdir».

Davamı 5-ci səhifədə






Yeni bina və yüksək infrastruktur, kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, əməkdaşların bilik və bacarıqlarının artırılmasının beynəlxalq standartlara uyğun təşkil edilməsi istiqamətində inkişafın yeni mərhələsinin başlanğıcı oldu

Bura təhsil və elm ocağı olmaqla yanaşı, həm də işgüzar mərkəz sayılır. Tədris Mərkəzini respublikamızda fəaliyyət göstərən digər tədris ocaqlarından fərqləndirən əsas cəhət inzibati, tədris, yataqxana, yaşayış və kotteclərdən ibarət binaların, idman-sağlamlıq kompleksinin eyni ərazidə yerləşməsidir. Bura təhsil almaq və elmi fəaliyyətlə məşğul olmaq, yaşamaq, eləcə də təhsildənkənar vaxtlarda istirahət etmək üçün əvəzsiz məkandır.

Tədris Mərkəzinin həyətyanı sahəsi, xüsusilə, səhərlər gözəlliyi ilə göz oxşayır. Al-əlvan gül kolları, yaşıl çəmənliklər, dekorativ bitkilər həyətyanı sahənin gözəlliyinə əlavə rəng qatır, insanlarda xoş əhval-ruhiyyə yaradır. Rahat oturacaqlar, kənardan sərinlik gətirən kiçik su şırnaqları insanda daxili bir rahatlıq hissi yaradır.

## Məzmunla formanın ahəngdarlığı

Tədris Mərkəzin maliyyə-təsərrüfat işləri üzrə rəis müavini Tofiq Tarverdiyev bizi həyətdə qarşılayır. Yayın təzə gəlməsinə baxmayaraq, mehqarışıq sərin havada gəzinti yolun yorğunluğunu çıxarmaq üçün əla fürsət olur. Tofiq müəllim hər gün binanın həyətində bir neçə dövrə vurduğunu, öz işi ilə bağlı binanı və yataqxana ərazisini gözdən qoymadığını bildirir. Deyir ki, ərazisi 2,1 hektar olan mərkəzin binasının ümumi sahəsi 1900 kv.m-dir. 2015-ci ildə mərkəzdə əsaslı yenidənqurma və rekonstruksiya işləri aparılıb, inzibati bina bir mərtəbə artırılaraq 4 mərtəbəyə çatdırılıb. 32 şərait təmin edilib, otaqlarda ən zəruri avadanlıqlar mövcuddur, lazım olan bütün tələblər nəzərə alınıb. Tədris Mərkəzinin iqtisadiyyat və menecment kafedrasının müdiri İmran Qarayev deyir ki, onun üçün ikiotaqlı mənzil ayrılıb və burada ailəsi ilə birlikdə yaşayır: «Bura öz evimizdən fərqlənmir. Mətbəxdə və hamamda 24 saat fasiləsiz isti və soyuq su olur. Mənzillərin hər birində soyuducu, şkaf və digər avadanlıqlar, qaz sobası quraşdırılıb. Qışda otaqların qızdırılması da yüksək səviyyədə təmin edilir. Otaqlarda televizor var, ayrıca telefon xətti çəkilib».

Tofiq müəllim deyir ki, ərazidə yenidən abadlaşdırma işləri aparılıb. Yeni gül kolları, ağaclar əkilib, ot örtüyü yenilənib. Su hovuzu yenidən bərpa olunub, vitamin bar təzələnib, havalandırma sistemi təkmilləşdirilib. Yeməkxananın avadanlıqları təzələnib, əlavə aksesuarlar alınıb.

Kənardan dəvət olunan ekspertlərin rahatlığı üçün də mərkəzdə normal şərait yaradılıb. Onlar üçün hər biri iki nömrə olmaqla iki ikimərtəbəli kottec nəzərdə tutulub. Xarici ölkələrdən gələn qonaqlar buradakı imkanları yüksək qiymətləndirirlər.

## Tədris və təlimin keyfiyyəti daim diqqətdə saxlanılır

Tədris Mərkəzinin rəisi Əli Həsənov bildirir ki, bu təhsil ocağının ana şüarı dövlət vergi orqanlarında çalışan əməkdaşların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, praktiki iş və idarəetmə qabiliyyətinə, yeni texnologiyalara və texəsasları (ilkin hazırlıq), orta menecerlər və mütəxəssislər üçün ixtisasartırma təlimləri, innovasiya təlimləri və qısamüddətli təlimlər (ənənəvi və onlayn).

Peşə fəaliyyətinin ümumi əsasları təlim modulunun məqsədi işə yeni qəbul edilən stajçı əməkdaşlara dövlət vergi orqanlarının fəaliyyət istiqamətləri və vəzifələri, aparılan vergi siyasəti, əməkdaşların ümumi hüquqları və vəzifələri, onların iş prosesində riayət etməli olduğu ümumi qaydalar, o cümlədən etik davranış normaları və təlimatlar barədə nəzəri və praktik əhəmiyyət kəsb edən bilikləri təqdim etməkdir.

Peşə fəaliyyətinin ümumi əsasları təlimlərinə cəlb olunan dinləyicilər vergi qanunvericiliyi, funksional fəaliyyət istiqamətləri üzrə vergi inzibatçılığı, hüquqi biliklərin əsasları, iqtisadiyyatın dövlət tənzimlənməsi, mühasibat uçotu, kompüter biliklərinin əsasları və xüsusi mövzular üzrə bilikləri mənimsəyirlər.

Bu tədris ilindən etibarən təlimçilər tərəfindən oxunan mühazirələrlə yanaşı, seminar dərsləri də keçilir. Həmin dərslərdə stajçı əməkdaşın dinlənilən mühazirənin sərbəst, auditoriya qarşısında təqdim etmək qabiliyyəti formalaşır. Bundan başqa, dinləyici ümumi dünyagörüşə əsaslanan bir sərbəst mövzu üzrə təqdimat hazırlayır, yenə də həmin mövzunu auditoriya qarşısında təqdim edir. Təlim prosesinə bu cür yanaşma əməkdaşın həm də bir təlimçi kimi formalaşmasına şərait yaradır. Gələcəkdə həm nəzəri və həm də praktiki biliyə yiyələnmiş bu cür

Tədris prosesində son bir ildə ən əlamətdar hadisələrdən biri sertifikatlaşdırmanın başlanmasıdır

# Təhsil və təlimin doğru ünvanı

Əvvəli 4-cü səhifədə

## Elmi axtarışlar uğurlu nəticələr verir

Mərkəzdə vergi sisteminin və vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində elmi tədqiqatların aparılması üzrə təşkilati, nəzəri və praktiki tədbirlər həyata keçirilir. Elmi-tədqiqat işləri üzrə rəis müavini Mirəli  Kazımovun sözlərinə görə, hər il mərkəzin Elmi Şurası tərəfindən təsdiq edilmiş konkret mövzular üzrə elmi-tədqiqat işləri yerinə yetirilir. Məsələn, vergi güzəştləri və azadolmaların tətbiqi ilə bağlı araşdırmalar aparılıb, ingilis və rus dillərində «Beynəlxalq vergi-maliyyə terminləri» üzrə izahlı lüğət hazırlanıb və mərkəzin rəsmi saytında yerləşdirilib: «Tədris Mərkəzində aparılan dərslərin video çəkilişləri, müxtəlif təyinatlı tədris-metodiki vasitələr və digər sənədlər mütəmadi olaraq Vergilər Nazirliyinin elektron kitabxanasına daxil edilir və onun monitorinqi keçirilir. Təhsil müəssisələrində vergi sahəsində biliklərin aşılanması, gənclərdə vergi mədəniyyətinin formalaşdırılması, kadr hazırlığı prosesində qarşıya çıxan problemlərin təhlili, nəzəri biliklərlə praktiki tətbiq bacarıqlarının araşdırılması, ixtisasartırma və peşə hazırlığı problemlərinin real tələbatla uyğunlaşdırılması və digər mövzular elmi-tədqiqat işlərinin əsas istiqamətlərini təşkil edir. Mərkəzdə elm sahəsi ilə bağlı xüsusi şöbədə fəaliyyət göstərir ki, bu da tədqiqat işlərinə öz töhfəsini verir.



Tədris Mərkəzi ilə elm və təhsil müəssisələri arasında imzalanan sazişlər də elmi-tədqiqat sahəsində aparılan işlərə fayda verməkdədir. Azərbaycan Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Universiteti arasında elm və təhsil sahəsində əməkdaşlıq müqavilələrinin imzalanması bu istiqamətdə xoş missiyanın başlandığını göstərir. Vergi ödəyiciləri, vergi orqanları əməkdaşları və digər təşkilatların nümayəndələri üçün təlimlərin təşkili, vergi orqanlarında və maliyyə xidməti sektorunda çalışan əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi, «e-learning» sahəsində təcrübə mübadiləsi, vergi sisteminin təkmilləşdirilməsi və maliyyə xidmətlərinə dair elmi tədqiqatların aparılması məqsədilə Tədris Mərkəzi ilə Azərbaycan Bank Tədris Mərkəzi arasında əməkdaşlıq sazişi daha 5 il müddətinə uzadılıb».

> Tədris Mərkəzində aparılan dərslərin video çəkilişləri, müxtəlif təyinatlı tədris-metodiki vasitələr və digər sənədlər mütəmadi olaraq Vergilər Nazirliyinin elektron kitabxanasına daxil edilir və onun monitorinqi keçirilir

Mirəli müəllim deyir ki, 2015-ci ilin dekabrında respublikanın ali təhsil müəssisələrinin tələbə və magistrantları arasında «Vergilər» mövzusunda keçirilmiş bilik olimpiadasının test bazası Tədris Mərkəzinin əməkdaşları tərəfindən hazırlanıb və olimpiadanın təşkil edilməsində və keçirilməsində də bilavasitə iştirak ediblər.

## Onlayn tədris tətbiq olunur

Vebinar və onlayn rejimli təlimlərin təşkili üçün Vergilər Nazirliyinin Mərkəzi Aparatında və Tədris Mərkəzində zəruri texniki vəsaitlər quraşdırılıb, onların proqram təminatı təmin edilib. Hazırda Tədris Mərkəzi onlayn təlimlərin əsas təşkilatçısı funksiyasını icra edir, metodiki təminatı həyata keçirir. İKT-nin imkanlarından istifadə etməklə 2015-ci ildən onlayn rejimdə iş yerindən ayrılmadan dövlət vergi orqanları əməkdaşları üçün e-təlimlər keçilir ki, bu da az xərc və vaxt sərf etməklə təlim prosesinin intensivləşməsinə imkan verir.

Tədris prosesində ənənəvi təlimlərlə yanaşı, real vaxt rejimində məsafədən, kombinə edilmiş və dinləyicilərin birbaşa iş yerlərində səyyar tədris metodları kimi təlim formalarından da istifadə olunur və zamanın tələblərinə uyğun olaraq təlimin  təşkili qaydaları mütəmadi şəkildə yenilənir.

Biz Tədris Mərkəzində olarkən auditoriyadakı dərs prosesində dinləyicilərə məsafədən tədrisin müxtəlif formalarının tətbiqi izah olunurdu. Burada kombinə edilmiş tədrisin və virtual sinfin təşkili yüksək peşəkarlıqla təlimlər keçməyə imkan verir. Mərkəz yeni dövrün çağırışlarına uyğun olaraq əyani vəsait kimi istifadə edilən ən son texnoloji vasitələrin tədris  prosesində tətbiqini əsas məqsədlərdən biri hesab edir.

## İnternet mərkəzi və kitabxana

Tədris Mərkəzinin internet mərkəzində tədris və təhsil üçün hər cür imkan yaradılıb. İnternetin sürəti çox yüksəkdir və 15-ə yaxın kompüterin sürət trafiki paytaxt Bakıdakı bir çox inzibati strukturların və şirkətlərin internetindən heç də geri qalmır. İnternet mərkəzinin qapıları  gecə saatlarında belə bütün  istifadəçilərin üzünə açıqdır.

Mərkəzin kitabxanası da ən çox üz tutulan məkanlardandır. Kitabxanaçı Əntiqə Vəzirova deyir ki, kitab fondunda 1350-dən artıq kitab var. Bunlardan 500-ü bədii, 120-si siyasi ədəbiyyat, 730-dan çoxu isə qanunvericilik və vergitutmanın müxtəlif problemlərinə həsr olunmuş kitablardır.

Kitabxanada dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycanın keçdiyi inkişaf yoluna, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, vergi sistemində həyata keçirilən islahatlara dair vəsaitlər əldə etmək olar. 2017-ci ildə nəşr edilmiş yeni Vergi Məcəlləsi və digər kitablar da kitabxanaya təqdim olunub.



## Vergi Muzeyi

Tədris Mərkəzinin ən maraqlı və bura gələnlərin diqqətini cəlb edən guşələrindən biri Vergi Muzeyidir. 2015-ci ildə vergilər nazirinin əmri əsasında mərkəzin  inzibati binasında yaradılan muzey Azərbaycanın vergi tarixinin ən qədim dövrlərindən başlayaraq bu gününə qədər keçdiyi yolu əks etdirən tarixi kolleksiyaların və ekzpozisiyaların zənginliyi ilə seçilir. Mərkəzin iqtisadiyyat və menecment kafedrasının müdiri İmran Qarayevin qeyd etdiyinə görə, burada vergilərin yaranması və təkamülü, Azərbaycanın vergi sisteminin formalaşması, müasir vergi sisteminin qurulması və bu sahədə aparılan islahatların tarixi ilə bağlı əşyalar, kolleksiyalar, mühüm vəsaitlər toplanılıb. Muzey fondunda elmi cəhətdən əsaslandırılmış, daimi saxlanılan, qorunan və müvafiq qaydada nümayiş etdirilən əşyalar və kolleksiyalarla yanaşı, əlyazmalar, mətnlər və nəşrlər, arxiv sənədləri, şəkillər, kino materialları, surət nümunələri, maketlər, bərpa materialları, planlar, xəritələr, sxemlər, cədvəllər, diaqramlar, bəyannamələr, aktlar, bildirişlər, protokollar və digər əyani materiallar cəmləşdirilib.

Vergi Muzeyində saxlanılan əşyalar, sənədlər, arxiv materialları və digər kolleksiyalar vergi sahəsində araşdırma aparan mütəxəssis və alimlər, tədqiqatçılar üçün ən dəyərli mənbədir. Muzey nəsildən-nəsilə ötürülən canlı vergi tarixi kimi vergilərin öyrənilməsi və təbliği, vergi mədəniyyətinin yüksəldilməsi işinə töhfə vermək üçün ən qiymətli mədəniyyət ocağı sayıla bilər.

Muzey eksponatlarının qorunması rejimi də özəlliyi ilə diqqət çəkir. Burada otaq temperaturu +10 dərəcədən +25 dərəcəyədək, nisbi rütubət 50-60% səviyyəsində nizamlanır. Günəş şüasından qorunmaq üçün pəncərələr pərdə ilə (əsasən qara) bağlı saxlanılır. Əşyalar muzeydə bağlı şkaflarda və ya şüşə ilə qorunmuş yerlərdə saxlanılır. Mərkəzin rəisinin əmri ilə təsdiq edilmiş müvafiq komissiya tərəfindən hər il muzeyin əşya və kolleksiyalarının inventarizasiyası aparılır. Vergi tarixinə aid təqdim olunmuş yeni eksponatlar, kitablar, tarixi sənədlər muzeyə təhvil verilir.

İmran müəllim deyir ki, vergi orqanlarının vəzifəli şəxsləri, dövlət orqanlarının nümayəndələri, bələdiyyələrin və onların vergi orqanlarının əməkdaşları, təhsil müəssisələrinin nümayəndələri, tələbə və şagirdlər, vergi ödəyicilərinin təmsilçiləri və digər yerli və xarici qonaqlar muzeyi ziyarət edirlər.

## Sağlam bədəndə sağlam ruh olar...

Dinləyicilərin və müəllimlərin böyük qismini mərkəzdə fəaliyyət göstərən idman komleksində görmək olar. Qapalı idman-sağlamlıq komleksi hamının üz tutduğu yerlərdəndir. Buradakı avadanlıqlar gecə-gündüz insanların ixtiyarındadır. İdman-sağlamlıq mərkəzinin ərazisi 420 kv.m-dir. Burada hovuz (110 kv.m.), quru və buxarla işləyən sauna, duş otaqları, trenajor və vitamin bar fəaliyyət göstərir. Mərkəz müəyyən edilmiş qrafik əsasında (qadın əməkdaşların, kişi əməkdaşların, qadın dinləyicilərin və kişi dinləyicilərin hər biri üçün müəyyənləşdirilmiş qaydada) xidmət göstərir.

Yeməkxana mərkəzin əsas binasının birinci mərtəbəsində yerləşir. Buranın 150 nəfərə  bir dəfəyə yemək təqdim etmək imkanı vardır. Səhər saat 6-dan axşam saat 9-dək fəaliyyət göstərən yeməkxanada həftəlik menyu tərtib edilir.

İndiyədək dinləyicilər və mərkəzin işçiləri arasında səhhəti ilə bağlı narahatlıq keçirən olmasa da, burada bir çox zəruri dərman və ləvazimatlar var. Mərkəzin əməkdaşları deyirlər ki, bu cür təmiz havası olan, təbiətin qoynunda yerləşən, müasir idman kompleksi fəaliyyət göstərən məkanda xəstələk də olmaz...

## Təsərrüfat sahəsində ciddi qayda-qanun yaradılıb

T.Tarverdiyev bildirir ki, mərkəzdə təhlükəsizlik, kommunal xidmətlər, sosial infrastruktur etibarlı və fasiləsiz şəkildə təmin edilir. İnzibati binada aparılan tikinti və yenidənqurma işləri yekunlaşdıqdan sonra infrastruktur tam bərpa edilib, yeni tikilmiş mansard tipli mərtəbələrdə təyinata uyğun müvafiq şərait yaradılıb. Binanın və digər tikililərin mühafizəsinə, yanğın təhlükəsizliyi texnikasının tələblərinə uyğun müvafiq qaydalara, inzibati binanın və digər tikililərin təmizliyinə, elektrik enerjisindən, qazdan və içməli sudan istifadə zamanı qənaət rejiminə ciddi riayət olunmasına güclü nəzarət edilir.

Mərkəzin enerji təminatı üçün ayrıca quraşdırılmış transformator məntəqəsi 24 saat fasiləsiz və keyfiyyətli enerji verilməsini təmin edir. Qazanxana isə həm tədris binasının auditoriya və otaqlarını, yataqxananı, həm də  yaşayış binasının otaqlarını istilik sistemi ilə təchiz edir. Qışda ən soyuq temperaturda belə, otaqlarda fasiləsiz isti su olur.

## Maarifləndirmə işləri yüksək səviyyədə təşkil olunub

Şagird və tələbələrin vergilər haqqında bilik və anlayışlarının artırılmasında, onlarda vergi mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayan ümumtəhsil məktəblərinin, orta ixtisas peşə liseylərinin müəllimlərinin təlimlərdə iştirakı geniş şəkildə təmin olunur. Son illər yeni dərs ili ərəfəsində Bakı şəhərini və respublikanın müxtəlif regionlarını təmsil edən 49 metodist-müəllimin Tədris Mərkəzində seminar-məşğələlərə cəlb olunması vergi sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bununla yanaşı, mərkəzin mütəxəssislərinin köməyi ilə Azərbaycanın müxtəlif bölgələrində yerləşən 54 təhsil müəssisəsində təşkil olunmuş metodiki kabinetlərin və vergi tədris otaqlarının tədris vəsaitlərinə ehtiyacının ödənilməsi məqsədilə 6-8-ci və 9-11-ci siniflər üçün nəzərdə tutulan dərs vəsaitləri qanunvericilikdə edilmiş dəyişikliklər nəzərə alınmaqla yenidən redaktə olunaraq nəşr etdirilir.

Mühüm yeniliklərdən biri də Tədris Mərkəzində keçirilən imtahanların AVİS-ə tam inteqrasiya edilməsidir.

## Hamı üçün doğma məkan...

Tədris Mərkəzi təkcə vergi orqanı əməkdaşları üçün doğma ocaq deyil. İndi bura ölkəmizin iqtisadi qurumlarının, biznes icmasının, sahibkarların, ictimai təşkilatların da sevimli məkanına çevrilib. Yenidənqurma işlərindən sonra mərkəzdə respublika və beynəlxalq əhəmiyyətli müxtəlif konfrans, iclas və digər tədbirlərin keçirilməsi ənənə halını alıb. Ötən illər ərzində Tədris Mərkəzində ən mühüm  beynəlxalq  tədbir  və konfranslar keçirilib. Onların sırasında «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə: nailiyyətlər və perspektivlər» mövzusunda beynəlxalq konfrans, Vergilər Nazirliyi ilə Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlıq çərçivəsində «Vergi üzrə peşəkar təlim və inkişaf forumu», «Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu» mövzusunda elmi-praktik konfrans, «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində təlim, «Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları» mövzusunda III beynəlxalq elmi konfrans və digər tədbirlərin keçirilməsi buna sübutdur. Sığortaçılar, auditorlar, mühasiblər, bank mütəxəssisləri, iqtisadçı alimlər, sahibkarların ictimai təşkilatlarının nümayəndələri və digər iqtisadi qurumların əməkdaşları mərkəzdə seminar və konfraslar təşkil edir, geniş diskussiya və müzakirələr aparırlar. Mühasiblərin birinci Forumu, sığortaçıların konfransı və digər respublika səviyyəli tədbirlər Tədris Mərkəzinin böyük auditoriyanın açıq ünvanına çevrildiyini göstərir.



Mərkəzdə beynəlxalq əməkdaşlıq sazişlərinin imzalanması da mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq Antikorrupsiya Akademiyası və Vergilər Nazirliyi arasında anlaşma memorandumunun, Avstriya Federal Maliyyə Akademiyası ilə anlaşma sazişinin imzalanması Tədris Mərkəzinin nüfuzunun göstəricisidir.

Mərkəzdə vergi əməkdaşları ilə yanaşı, bələdiyyələrə, vergi ödəyicilərinə və vergi dostlarına da müxtəlif istiqamətlər üzrə təlimlər keçilir. Bələdiyyə orqanlarının nümayəndələri üçün yerli vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə dəqiq riayət edilməsi sahəsində biliklərinin artırılması üçün davamlı məşğələlər təşkil olunur. Onlara Bələdiyyələrin Vergi İnformasiya Sistemi proqram təminatından istifadə ilə bağlı iş prosedurları öyrədilir.

Mərkəzin əməkdaşları zəruri hallarda digər dövlət orqanlarının tədris prosesinə də cəlb olunurlar.

## Uğur uğur gətirir...

Tədris Mərkəzinin fəaliyyəti və təlim konsepsiyası beynəlxalq təşkilatların da diqqətindən yayınmır. Ötən il Almaniyanın «TUV Thuringen E.V» şirkətinin Azərbaycan nümayəndəliyi tərəfindən aparılan auditin nəticələri əlamətdar hadisə kimi yadda qalıb. Alman şirkəti Tədris Mərkəzini beynəlxalq standartlara uyğun ən yaxşı təhsil müəssisəsi kimi qiymətləndirib. Auditorların qənaətinə görə, Vergilər Nazirliyinin bu təhsil ocağı idarəetmə və tədris siyasəti, tədrisin keyfiyyəti, resurslardan istifadə, təlim metodları sahəsində yaxşı təcrübəyə malikdr, mərkəzin maddi-texniki bazası, İKT vasitələri ən müasir təlim formalarını tətbiq etməyə imkan verir. Bu xüsusiyyətlərinə görə, Tədris Mərkəzi İSO 9001:2015 beynəlxalq sertifikatına layiq görülüb.

## Beynəlxalq mütəxəssislər nə deyir...

Vaxtaşırı olaraq Tədris Mərkəzinə üz tutan xarici ölkələrin vergi, audit, maliyyə sahəsi üzrə mütəxəssisləri bu təhsil ocağının iş fəaliyyəti ilə tanış olur, seminarlar təşkil edir, öz təcrübələrini bölüşürlər. Mərkəzdə 2012-ci ildən başlayaraq xarici təcrübənin öyrənilməsi və təcrübə mübadiləsi məqsədilə kurslar təşkil edilir. 2013-cü ildən bəri Tədris Mərkəzinin beynəlxalq əməkdaşlıq sahəsində təlim və tədris kursları mütəmadi hal alıb. Fransanın, İspaniyanın, Avstriyanın, Böyük Britaniyanın, İrlandiyanın vergi mütəxəssisləri Tvinninq layihəsi çərçivəsində təlimlərdə iştirak ediblər.

Avstriya Federal Maliyyə Akademiyasının təlim üzrə ekspertləri Yohannes Buhl və Stefan Fersterer üçün bura doğma məkana çevrilib. İnsan resurslarının idarə olunması sahəsində bir neçə dəfə təlim kursu keçən hər iki mütəxəssin təəssüratları da zəngindir. Elektron xidmətlər üzrə təlim meneceri Yohannes Buhl hesab edir ki, vergi administrasiyalarının qarşısında duran əsas strateji məqsədlərdən biri tədrisin və təlim prosesinin keyfiyyətinin artırılmasıdır. Vergi sistemi üçün hazırlanan kadrların davamlı olaraq zəruri biliklər, tətbiq edilən yeniliklər barədə məlumat alması başlıca şərtdir. Dünya ölkələrinin bir çoxunun vergi administrasiyalarındakı problemlərin kökündə insan resurslarının inkişafının lazımi səviyyədə olmaması dayanır.

> Bu gün IOTA-nın yüksək qiymət verdiyi ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş üç böyük elm və təhsil müəssisəsindən biri Azərbaycandakı Tədris Mərkəzidir

Stefan Fersterer isə deyir ki, Azərbaycanın vergi siyasətində kadr potensialının hazırlanması, təhsildə innovativ formaların, dövlət vergi orqanı əməkdaşlarının peşəkar inkişaf fəaliyyətinə yardım edən müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə, davamlı təhsil və tədrisə, yeni təyin olunanlar üçün ilkin hazırlıq və ixtisasartırma kurslarına mühüm yer verilir: «Şamaxıdakı Tədris Mərkəzi güclü infrastruktur imkanlarına, avadanlıqlara, beynəlxalq standartlara cavab verən innovativ vasitələrə malikdir. Bu gün IOTA-nın yüksək qiymət verdiyi ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş üç böyük elm və təhsil müəssisəsindən biri Azərbaycandakı Tədris Mərkəzidir. Burada vergi orqanı əməkdaşlarının tədrisi və ixtisaslarının artırılması, işgüzar dairələrin iştirakı ilə faydalı müzakirələrin aparılması, təlimlərin ən yüksək səviyyədə keçirilməsi üçün hər bir şərait var. Seminar zallarına geniş təlimçi auditoriyasını cəlb etmək mümkündür. Müəssisədəki şərait təlimlərin interaktivliyini təmin etməyə, onlayn tədris prosesini artırmağa imkan verir».

Mərkəz haqqında ümumi fikir bundan ibarətdir ki, bura yalnız Azərbaycanın deyil, regionun digər ölkələrinin də vergi administrasiyaları üçün təcrübə və bilik mənbəyi olacaqdır.

## Regional mərkəzin astanasında...

Vergilər Nazirliyinin yaxın dövr üçün strateji hədəflərindən biri də Tədris Mərkəzinin daha geniş və regional auditoriya üçün təlim və tədris müəssisəsinə çevrilməsini təmin etməkdir. 2015-ci ildə Vergilər Nazirliyi ilə IOTA arasında keçirilən Peşəkar Təlim və İnkişaf Forumunda müzakirə olunan əsas məsələlərdən biri Şamaxıdakı Tədris Mərkəzinin bazasında Regional Təlim və Tədqiqat Mərkəzinin yaradılması olub. Beynəlxalq vergi ekspertləri bildiriblər ki, təlimdə innovativ alətlərdən istifadəni öyrənən, beynəlxalq bilik və təcrübə mübadiləsini təmin edən və təlim sahəsində ölkələrin ən son yeniliklərini təqdim edən Tədris Mərkəzi belə bir qurumun yaradılmasında hər cür imkanlara malikdir.

**Elbrus CƏFƏRLİ**

# Vaşinqtonda Trans-Xəzər Forumu keçirilib

İyunun 26-da ABŞ-ın paytaxtında ikigünlük Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Forumuna start verilib. Forumun əsas məqsədi Trans-Xəzər nəqliyyat dəhlizi dövlətləri - Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə, Əfqanıstan və Türkmənistan tərəfindən həyata keçirilən infrastruktur layihələri, mövcud biznes və sərmayə imkanları barədə ABŞ-ın siyasi, akademik və biznes ictimaiyyətinin məlumatlandırılmasıdır.

Nüfuzlu Corc Vaşinqton Universitetində keçirilən, universitetin Mərkəzi Asiya Proqramı və Xəzər Siyasət Mərkəzinin ev sahibliyi etdiyi forumun ilk günündə ABŞ dövlət qurumlarının, akademik təşkilatların, biznes və siyasi dairələrin, diplomatik korpusun 200-dək nümayəndəsi iştirak edib.

ABŞ kommersiya katibinin köməkçisinin Avropa üzrə müavini Deyl Taşarski tədbirdəki çıxışında müasir İpək Yolunun vacib komponenti olan Trans-Xəzər dəhlizinə ölkəsinin dəstəyini ifadə edib. Sonra Azərbaycanın və Forumun digər təşkilatçı dövlətlərinin ABŞ-dakı səfirləri çıxış ediblər. Ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanov çıxışında Azərbaycan hökumətinin müasir İpək Yolunun canlandırılmasına böyük dəstəyinə diqqət çəkərək, bu işdə mövcud vacib infrastruktur layihələri və nəqliyyat şirkətlərinin, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Heydər Əliyev adına Beynəlxalq Hava Limanındakı Bakı Karqo Terminalı, «Silk Way», «Azərbaycan Dəmir Yolları» və «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi»nin oynadığı xüsusi rolu vurğulayıb.

Müasir İpək Yolunun inkişafının Azərbaycanın və digər dəhliz ölkələrinin, eyni zamanda, biznes, idman və mədəniyyət mərkəzinə də çevrilməsinə yardım etdiyini qeyd edən səfir E.Süleymanov buna bariz nümunə kimi bu günlərdə Bakıda keçirilən Formula- 1 yarışını göstərib. Ölkəmizin regional mərkəzə çevrilməsində Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasətindən danışan səfir 1998-ci ilin sentyabrında ilk dəfə olaraq müasir İpək Yolunun canlandırılmasına həsr olunmuş konfransın ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirildiyini xatırladıb.

Forum çərçivəsində Trans-Xəzər dəhlizi ölkələrində biznes və sərmayə şəraiti, dəniz, dəmir yolu və hava nəqliyyatının imkanları üzrə təşkil edilən dörd paneldə dövlət və şirkət nümayəndələri çıxışlar edib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## 2017-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergininbəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**2017-ci ilin 2-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**
*(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*
cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir. **(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)**

**Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Dövlər rüsumu haqqında hesabat**

cari ilin **iyul ayının 20-dək** vergi orqanına **təqdim edilməlidir** (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergicinin ödəyiciləri tərəfindən**

2017-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr **iyul ayının 17-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sığorta ödənişinə qanunsuz endirim və ya güzəştlər yolverilməzdir

Ölkədə icbari sığorta müqavilələrinin rəsmiləşdirilməsi hər bir icbari sığorta sinfi üzrə tənzimləyici orqan tərəfindən müəyyən edilmiş sığorta haqları əsasında baş verir və bu məbləğlərdən kənaraçıxmalar yolverilməzdir. Bununla belə, icbari sığorta müqavilələri əldə edərkən sığorta vasitəçiləri tərəfindən bir sıra hallarda vətəndaşlara endirimlər və güzəştlər təklif olunur. Bu hallara daha çox avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) sahəsində rast gəlinir.

İcbari Sığorta Bürosundan bildirilmişdir ki, AVSMMİS müqavilələri bağlayan zaman bu cür endirimlərin və hər hansı güzəştlərin tətbiqi qanuna ziddir və nəticə etibarilə sığortalıların hüquqlarının pozulmasına yol açır: «İcbari sığortalar haqqında» Qanunun 11.4-cü maddəsində qeyd edilir ki, qanunla və ya qanundan irəli gələn digər normativ hüquqi aktla müəyyən olunmuş icbari sığorta haqqına hər hansı formada əlavə və ya endirim tətbiq etmək, həmçinin sığorta müqaviləsinin bağlanması müqabilində sığortalılara hədiyyələr vermək və ya bu cür sövdələşmələr təklif etmək qadağandır».

Qeyd olunur ki, qanunsuz endirimlərdən yararlanmaq sığortalının sığorta təminatını sual altına qoya bilər. Belə ki, təyin olunmuş sığorta haqqından daha aşağı məbləğə icbari sığorta əldə edən sürücülər gələcəkdə sığorta hadisəsi baş verdiyi halda, sığorta şirkəti onların tələbini təmin etməyə bilər: «Bir sıra hallarda bəzi sığorta vasitəçiləri fürsətcil və tamahkar davranış nümayiş etdirərək vətəndaşa icbari sığorta satarkən sığorta şirkətinin məlumat sisteminə müştərinin sığortalamaq istədiyi avtonəqliyyat vasitəsinin deyil, eyni markadan olan daha aşağı mühərrikli avtonəqliyyat vasitəsinin məlumatlarını daxil edir və nəticədə müqavilə üzrə daha kiçik sığorta haqqı məbləği formalaşır. Məlumatların sistemə daxil edilməsi vətəndaşın iştirakı ilə baş verməddiyindən, sığorta vasitəçisi bu məbləği məhz endirimli məbləğ kimi qələmə verir və bu üzrə xərclənməsi məqsədilə nəzərdə tutulan ehtiyatı formalaşdırır. Lakin agentin müştəriyə təklif etdiyi qeyri-qanuni endirim nəticəsində sığorta şirkəti həmin 80 manatın əlavə 15 manatını da vasitəçiyə verirsə, nəticədə ehtiyat fondu 65 manatadək azalır. Gələcəkdə sığorta hadisəsi baş verdikdə, sığorta şirkəti itirilmiş həmin 15 manatı bərpa etmək üçün ödəniş məbləğini müxtəlif yollarla azaltmağa çalışır. Nəticədə isə bundan uduzan müştəri olur, vaxtilə 15 manat qənaət etməsi müqabilində indi bundan qat-qat böyük məbləğdə ödənişdən məhrum edilir və həmin məbləği qarşı tərəfə öz cibindən ödəmək məcburiyyətində qalır. Bir sözlə, vətəndaşlara təklif olunan endirimlər sığorta şirkətinin büdcəsinin müəyyən kəsiri hesabına əldə edilir, bu isə sığorta hadisəsi zamanı yaranacaq sığorta tələbinin sığorta şirkəti tərəfindən daha aşağı keyfiyyətlə təmin olunması ilə nəticələnir».

İcbari Sığorta Bürosu xatırladır ki, icbari sığorta sinifləri üzrə sığorta tarifləri dünya təcrübəsində dövlət tərəfindən minimal tələblər nəzərə alınmaqla müəyyən edilir və bu zaman o yanaşma əsas götürülür ki, sığorta hadisələri nəticəsində zərərçəkənlərə dəymiş zərərin əvəzini həmin icbari növ üzrə yığılmış bütün sığorta haqları hesabına tam həcmdə ödəmək mümkün olsun: «Bu səbəbdən, qüvvədə olan sığorta haqlarına hər hansı qanunsuz endirimlərin və ya güzəştlərin tətbiqi yolverilməzdir və ümumi icbari sığortalar sistemi üzrə sığorta şirkətlərinin ödəniş qabiliyyətinə mənfi təsir göstərir. Bundan əlavə, sığorta şirkətləri endirimlə icbari sığorta satdıqda, sığorta ödənişi zamanı ehtiyat fondunun kəsirlərini doldurmaq üçün yeni satışlardan daxil olan sığorta haqlarını cari sığorta ödənişlərinə yönəltməyə məcbur olurlar. Sığorta ödənişlərini bir müddət bu cür təmin edən sığorta şirkəti yekunda ciddi maliyyə problemləri ilə üzüzə qalacaq, bundan isə həm şirkət özü, həm də ümumilikdə sistem əziyyət çəkəcək».



**Vətəndaşlara təklif olunan endirimlər sığorta şirkətinin büdcəsinin müəyyən kəsiri hesabına əldə edilir, bu isə sığorta hadisəsi zamanı yaranacaq sığorta tələbinin sığorta şirkəti tərəfindən daha aşağı keyfiyyətlə təmin olunması ilə nəticələnir**

da ilk baxışdan vətəndaşı qane edir. Lakin bu məmnunluq ilk sığorta hadisəsi baş verənədək davam edir və hadisə baş verən zaman sığorta tələbini araşdıran sığorta şirkəti tərəfindən müqavilə məlumatlarının reallıqla uyğun gəlmədiyi aşkar olunur, bununla da vətəndaşın sığorta tələbi böyük sual altına düşür».

Bildirilir ki, qanuna əsasən, sığortaçı icbari sığorta satışından daxil olan sığorta haqlarının 20%-dək hissəsini işlərin aparılması xərclərinə, o cümlədən 15%-dək hissəsini sığorta vasitəçiliyi xidmətinə görə verilən komisyon muzdlara sərf edə bilər. Lakin bəzi hallarda sığortaçı öz agentinə müştəriyə bundan da aşağı məbləğlər müqabilində icbari sığorta satışı təklif etməsini tapşırır, bu isə sığortaçının sığorta ödənişləri üçün nəzərdə tutulan ehtiyat fondunun azalması hesabına mümkün olur: «Misal üçün, 100 manatlıq icbari sığorta müqaviləsinin 20 manatı həmin müqavilənin satışının təşkili üzrə çəkilmiş xərclər və sığorta şirkətinin öz agentinə verdiyi mükafatdan ibarətdir, yerdə qalan 80 manat isə həmin müqavilə ilə yarana biləcək öhdəlik

İcbari sığorta bazarında endirimlərin kütləvi şəkildə təklif edilməsi hesabına yaranan haqsız rəqabətin qarşısının alınması, eləcə də sığorta ödənişlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə icbari sığorta haqlarına hər hansı endirim və ya güzəştlərin təklif edilməsi həm qanunla, həm də Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən sığortaçılara və vasitəçilərə edilən çoxsaylı xəbərdarlıqlarla qadağan edilmişdir.

**AYTƏN**


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Aİ vergidən yayınanlara kömək edənləri cərimələyəcək

Avropa Komissiyasının üzərində işlədiyi yeni qanun layihəsinə əsasən, şirkətlərin gəlirlərini vergi dərəcələri aşağı olan ölkələrə köçürməklə onlara yardım edənlərə qarşı cərimə tətbiq edilə bilər. Yeni sənəd «Deloitte», «PricewaterhouseCoopers», «Ernest&Young» və KPMG kimi auditor şirkətlərini, eləcə də bank məsləhətçilərini və digər məsləhətçiləri Avropa İttifaqına (Aİ) üzv dövlətlər qarşısında «vergi optimallaşdırılmasının potensial aqressiv sxemləri» barədə hesabat verməyə məcbur edə bilər.

Belə bir addımın atılmasına səbəb vergidən yayınmaya qarşı mübarizəni gücləndirməkdir. Bu, həm də Panama sənədləri ilə bağlı keçənilki qalmaqalların nəticəsi olaraq görülən tədbirlərin tərkib hissəsidir. Tezliklə ictimaiyyətə açıqlanması gözlənilən qanun layihəsi əsasında müəyyənləşdirilmiş qaydalara əməl edilməməklə bağlı cərimələr tətbiq olunacaq, bununla əlaqədar qərar çıxarmaq hüququ isə Avropa İttifaqına üzv ölkələrin özlərində saxlanılacaq.

## Yaponiyaya ƏDV-nin dərəcəsini artırmaq tövsiyə olunub

Beynəlxalq Valyuta Fondunun (BVF) yeni məruzəsində mövcud büdcə kəsirinin azaldılması məqsədilə Yaponiyaya istehlak vergisinin (ƏDV) dərəcəsini 10 faizdən yuxarı səviyyəyə qaldırmaq tövsiyə edilmişdir. ƏDV dərəcəsinin artırılması mexanizmini də əhatə edən tövsiyədə qeyd olunur ki, vergi ödəyiciləri əvvəlcədən müəyyən qrup mallara tətbiq edilən verginin artırılması barədə məlumatlandırılmalı, verginin dərəcəsi isə bərabər zaman intervalları üzrə 0,5-1 faiz həcmində artırılmalı, gələcəkdə isə bu artım 15 faizə çatdırılmalıdır.

Bu ilin aprel ayında Yaponiya hökuməti hazırda 8 faiz təşkil edən ƏDV-nin dərəcəsini 10 faizə qaldırmaq barədə qərar qəbul etmişdi. Lakin yeni vergi dərəcəsi 2020-ci ilin oktyabr ayına qədər tətbiq olunmayacaq. Bununla yanaşı, hökumət müəyyən qrup mallar üçün paralel vergi tətbiq edilməsinin mümkünlüyünü də nəzərdən keçirir. BVF ekspertləri isə hesab edirlər ki, vergini «unitar» saxlamaq lazımdır, başqa sözlə, maksimal sayda mal və xidmətlər üçün vahid vergi dərəcəsi müəyyənləşdirilməlidir.

## Bəzi Çin mallarına dempinq qoymaq təklif edilib

Avropa İttifaqı (Aİ) qanunvericiləri quruma üzv ölkələrin hazırda tutduqları mülayim mövqeyi dəyişdirərək daha sərt mövqe tutmağı, bazarı ucuz Çin mallarından qorumaq metodlarını sərtləşdirməyi məsləhət görmüşlər. Avropa Parlamentinin Beynəlxalq ticarət komitəsi malları vergiyə cəlb etmək üçün Aİ-yə daha əlverişli imkanlar təklif edən mətni böyük səs çoxluğu ilə qəbul etmişdir.

Aİ, eyni zamanda, rəsmi Pekinin öz iqtisadiyyatını «bazar iqtisadiyyatı» kimi nəzərdən keçirmək tələblərinə qarşı da müqavimət göstərir. Hazırda Çin xüsusi bir iqtisadi hadisə kimi götürülür və bu ölkənin mallarına dempinq yalnız o hallarda tətbiq edilir ki, həmin mallar üçün ixrac qiymətləri digər dövlətlərdən, məsələn, ABŞ-dan aşağı olsun.

Avropa Komissiyası hesab edir ki, Aİ-nin siyasəti dəyişməli, bu münasibət Ümumdünya Ticarət Təşkilatının bütün üzvlərinə, o cümlədən Çinə qarşı eyni olmalıdır. Dempinq yalnız ixrac qiymətlərinin daxili qiymətlərdən aşağı olduğu zaman tətbiq edilməlidir.

## Mənfəət vergisi əvəzinə çıxarılmış kapitaldan vergi tutulması planlaşdırılır



Ukraynanın Maliyyə Nazirliyinin hazırladığı qanun layihəsinə əsasən, mənfəət vergisinin əvəzində çıxarılmış kapital üçün vergi tətbiq olunacaq. «Maliyyə Nazirliyi biznes təmsilçiləri, ekspertlər və deputatlarla birlikdə mənfəət vergisinin əvəzinə tətbiq edilməsi nəzərdə tutulan çıxarılmış kapital üçün vergi haqqında qanun layihəsini işləyib hazırlamışdır», - nazirliyin rəsmi açıqlamasında bildirilmişdir. Qeyd edilmişdir ki, nazirlikdə 20-dən artıq görüş keçirilmiş, iştirakçılara öz mülahizələrini bildirməyə, mübahisə doğuran məsələləri müzakirə və həll etməyə imkan yaradılmışdır. Növbəti addım tətbiq olunan sonra qanun layihəsinin dövlət büdcəsinə daxilolmalara təsirini qiymətləndirmək olacaq. Qiymətləndirmədən sonra isə sənədin Nazirlər Kabinetinə təqdim edilməsi üçün digər dövlət orqanları ilə razılaşdırma və ictimai müzakirələr mərhələsi gəlir.

Sənədin giriş hissəsində qeyd olunur ki, dividendlər qeyri-rezident hüquqi şəxsin və ya fiziki şəxsin ünvanına ödənilərkən çıxarılmış kapital üçün verginin dərəcəsi 15 faiz təşkil edəcək. Dividendlərlə müqayisə edilən ödənişlər üçünsə vergi dərəcəsi 20 faiz olacaq.

Bu cür ödənişləri:

- qeyri-rezidentlərin - əlaqəli şəxslərin ünvanına ödənilən faizlər;
- sığorta olunanların - qeyri-rezidentlərin xeyrinə sığorta və ya yenidən sığorta sazişləri çərçivəsində ödənişlər;
- 12 ay ərzində qaytarılmamış vergi ödəyicisi olmayanlara maliyyə yardımı ödənişi;
- sadələşdirilmiş vergi sistemi tətbiq edilən əlaqələndirici şəxslərdən mal və xidmətlərin satın alınması;
- transfer qiymətqoymalar üçün köçürmələrin başa çatdırılması;
- vergi ödəyicisi olmayanlara əmlakın ödənişsiz verilməsi;
- vergi ödəyicisi olmayanların nizamnamə fonduna qoyulan sərmayələr;
- royalti ödənişi.

2013-2017-ci illər üzrə ödənilmiş dividendlərin məbləğlərindən əvvəllər gəlir vergisi tutulmuş vergiyə cəlb olunan məbləğ hüdudlarında çıxarılmış kapital üçün vergi tutulmur.

## Vergidən yayınmaya qarşı mübarizə

Amerika Birləşmiş Ştatlarının hökuməti vergidən yayınmaq üçün müxtəlif metodlardan istifadə edən dairələrin, eləcə də bu məsələdə onlara yardım edən bankların müəyyənləşdirilməsi yönündə daha böyük səylər göstərməyi planlaşdırır. Bu məqsədlə Amerika məmurları Panama sənədlərinin ictimaiyyətə açıqlanmasından sonra ortaya çıxmış məlumatların, həmçinin İsveçrə banklarından və digər məlumat mənbələrindən əldə edilmiş göstəricilərin dərin təhlilini aparmağı nəzərdə tutur.

Vergidən yayınmanın kökünün kəsilməsi üçün ABŞ-ın Ədliyyə Nazirliyi və vergi administrasiyası ölkə vətəndaşlarının İsveçrədən İsrail, Sinqapur və Hankonq kimi ölkələrə köçürülmüş hesablarına nəzarət edəcək. ABŞ hökumətinin mövqeyinə görə, bir sıra hallarda offşorlardan istifadə etməklə vergidən yayınma metodlarının təhlil olunmasına ehtiyac var. Rəsmi dairələrdən bildirilmişdir ki, bu məlumatları əlaqələndirmək, pulların axınını müşahidə etmək və hara getdiyini dəqiqləşdirmək zəruridir. Qeyd edilmişdir ki, gələn ildən məlumatların təhlil olunmasına əhəmiyyətli dərəcədə resurslar yönələcək.

## Xəbər lenti

**Yunanıstan**da fəaliyyət göstərən Liberal Tədqiqatlar Mərkəzinin araşdırmasına əsasən, bu ölkədə çalışan hər bir işçi vergi və sosial fondlar üçün ödənişlərə 203 gün sərf edir. On il əvvəl - 2007-ci ildə isə bunun üçün cəmi 130 gün tələb olunurdu.

**Hindistan**ın mal və xidmətlərə qoyulan yeni verginin idarə edilməsi üçün nəzərdə tutulmuş onlayn portalı qeydiyyat üçün ərizələrin qəbulu məqsədilə iyunun 25-də yenidən açılmışdır. Mal və xidmətlər üçün yeni vergi iyulun 1-dən tətbiq ediləcək.

**ABŞ** iqtisadiyyatının artımı ilə bağlı Beynəlxalq Valyuta Fondu öz proqnozunu aşağı salmışdır. Fondun məlumatına əsasən, 2017-2018-ci illər üzrə ABŞ-da ümumi daxili məhsul artımı 2,1 faiz təşkil edəcək. Aprel ayında bu göstərici 2017-ci il üçün 2,3 faiz, 2018-ci il üçünsə 2,5 faiz müəyyənləşdirilmişdi.

**Braziliya hökuməti** təxminən 342 min orta və kiçik müəssisəyə vergiləri müddətlə ödəmək imkanı təklif etməklə büdcəyə 20 milyard Braziliya realı (6 milyard dollar) vəsaitin daxil olmasını təmin etmişdir.

**Avstriya** parlamentinin aşağı palatası OECD-nin ikiqat vergitutmanın aradan qaldırılması sazişlərindən sui-istifadə etməklə vergidən yayınmanın qarşısının alınmasına dair çoxtərəfli sənədini qəbul etmişdir.

**Banqladeş**də vençur şirkətlər və özəl səhmdar şirkətlər yeni yaradılan müəssisələrə investisiya cəlb etmək üçün hökumətə korporativ vergi güzəştlərinin müəyyənləşdirilməsini təklif etmişlər.

## Varlıların daha çox vergi ödəmələri təklif olunur

Almaniyanın Sosial-Demokratlar Partiyası bəyan etmişdir ki, partiya tərəfindən varlı vətəndaşları daha çox vergi ödəməyə məcbur etmək planlaşdırılır - bununla da əhalinin nisbətən kasıb təbəqəsinin vergi yükünü azaltmaq mümkün ola bilər. Analitiklərin rəyinə görə, partiya bu vədi verməklə payızda keçiriləcək seçkilərdə fəhlə sinfindən daha çox səs toplayacağına ümid edir.

«Biz aşağı və orta gəlirli vətəndaşların vergi yükünü yüngülləşdirəcək və onların ailələrini dəstəkləyəcəyik, - partiyanın lideri Martin Şults jurnalistlərlə söhbətində bildirmişdir. - Almaniyada varlılardan tutulan vergilərin artırılması yalnız öz ölkəmiz üçün deyil, həm də bütün Avropa üçün faydalıdır». Onun sözlərinə görə, Almaniya Sosial-Demokrat Partiyası gəlir vergisinin maksimal dərəcəsini 42 faizdən 45 faizə qaldırmağı təklif etmişdir. Bunun üçün vergi ödəmək üçün hədd hazırkı 54 min avrodan 76 min avroya çatdırılacaq. Partiyanın başqa bir təklifi isə il ərzində 250 min avro və daha artıq qazananlar üçün xüsusi yığım dərəcəsini hazırkı 45 faizdən 48 faizə qaldırmaqdır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Sual-cavab kimi qurulan danışıq forması; 2.Orqanik birləşmə; 3.Kosovoda şəhər; 4.Cənubi Azərbaycan ərazisindəki kiçik çarlıqları və vilayətləri birləşdirərək mərkəzləşdirilmiş Manna dövlətinin əsasını qoyan hökmdar; 5.ABŞ-ın Missuri ştatında şəhər; 6.İt cinsi; 9.Rusiyada çay; 13.Qadın adı; 15.Baş rolda Pyer Rişar olmaqla Fransa rejissoru Fransua Veberin komediya filmi (1976); 16.Respublikamızda rayon; 17.Böyük Britaniyada titul; 18.Tanınmayan yeni bir ölkəyə daxil olmuş və orada məskən salmış, həmçinin elm, mədəniyyət sahəsində yeni bir cərəyanın əsasını qoymuş adam (yol açan, bani); 20.Çernoqoriyada şəhər və hava limanı; 21.Saturn planetinin peyki.

**Soldan sağa:** 1.Pedaqogikanın təlim və tərbiyə üsullarından bəhs edən şöbə; 5.İlin dörddəbir hissəsi; 7.İki samitin qovuşmasından yaranan yeni samit; məs.: rusca «Ц» (t+s), «Ç» (t+ş); 8.Xəstəlik və ya qocalıq nəticəsində əmək qabiliyyətini itirmiş şəxs (şikəst); 10.RF-nin Xabarovsk vilayətində çay; 11.Azərbaycanda rusdilli sayt (əvvəllər gündəlik ictimai-siyasi qəzet kimi fəaliyyət göstərib); 12.Azərbaycan dramaturqu C.Cabbarlının pyesi; 14.Kimyəvi element (qaz); 19.Çobanyastığıkimilər fəsiləsinə aid bitki cinsi; 21.Boliviyada çay; 22.İndoneziyanın tərkibində ada; 23.Pizzaya bənzər populyar türk yeməyi; 24.Hər hansı musiqi səsinin şərti qrafik işarəsi; 25.Siqaret və papiros daşınması üçün tənəkə qutu.



*Baş rolda Pyer Rişar olmaqla Fransa rejissoru Fransua Veberin komediya filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kolumb; 2.Evqenol; 3.Dodge; 4.Şıxəli *(Qurbanov)*; 5.Kazan; 6.Bayquş; 9.Akif *(Cəfər oğlu Hacıyev)*; 13.Ansa; 15.Ukrayna; 16.Obyekt; 17.Qarant; 18.Unikum; 20.Rozid; 21.Taraz. **Soldan sağa:** 1.Krepdeşin; 5.Kub; 7.Laqodexi; 8.Azay; 10.Monte; 11.Lakhnau; 12.Alpan; 14.Əfruz; 19.Barista; 21.Toran; 22.Elza *(İbrahimova)*; 23.Babruysk; 24.Tad; 25.Entuziazm.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

# idman

## Gənc güləşçilərimizdən uğurlu start



Almaniyanın Dortmund şəhərində güləş üzrə gənclər arasında Avropa çempionatı davam edir. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, yarışın ilk günündə 50, 60, 74 və 96 kiloqram çəki dərəcələrində sərbəst güləşçilər arasında qaliblər müəyyənləşib. Güləşçilərimiz günü 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurublar.

Yarışda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Əli Rəhimzadə ilk görüşdə Ermənistan, ardınca Rusiya idmançısı ilə gərgin keçən görüşlərdən qalib ayrılıb. Yarımfinalda moldovalı rəqibini də üstələyən güləşçimiz finala yüksəlib. Həlledici görüşdə Əli Rəhimzadə Ukrayna idmançısı ilə qarşılaşıb. Gərgin keçən görüş güləşçimizin üstünlüyü ilə başa çatıb. Beləliklə, Əli Rəhimzadə Avropa çempionatının qızıl medalını qazanıb. Digər idmançımız Şahin Muxtarov (50 kq) ardıcıl olaraq Fransa və Almaniyadan olan rəqiblərini məğlub edərək finala yüksəlib. Həlledici görüşdə güləşçimiz Rusiya idmançısına uduzub və gümüş medalla kifayətlənib. Məhəmmədrəsul Qazıməhəmmədov (96 kq) isə qitənin üçüncüsü olub. Bürünc medal uğrunda görüşdə təmsilçimiz Türkiyə idmançısını məğlubiyyətə uğradıb.

Yarışların ikinci günündə 55, 66, 84 və 120 kiloqram çəki dərəcəsində sərbəst güləşçilər arasında qaliblər müəyyənləşib. Çempionatda 55 kiloqram çəkidə yarışan Əfqan Xaşalov İsveçrə, Ermənistan və Moldovadan olan rəqiblərini üstələyərək adını finala yazdırıb. Keçirdiyi görüşlərdə rəqiblərinə bir xal da verməyən güləşçimiz onlardan 34 xal ala bilib. Həlledici görüşdə Əfqanın rəqibi Bolqarıstan idmançısı olub. Tam üstünlüklə rəqibini məğlub edən güləşçimiz Avropa çempionatının qızıl medalına sahib olub. Hacımurad Məhəmmədsəidov (84 kq) da adını finala yazdırıb. Təmsilçimiz ardıcıl olaraq İtaliya, Gürcüstan və Ermənistandan olan rəqiblərini mübarizədən kənarlaşdırıb. Həlledici görüşdə Hacımurad Rusiya idmançısına da qalib gəlib və çempionatın qızıl medalını qazanıb. Mahal Novruzov (66 kq) da finaladək inamla güləşib. Güləşçimiz ardıcıl olaraq Estoniya, Ukrayna və Bolqarıstandan olan rəqiblərini tam üstünlüklə məğlub edib. Komanda yoldaşı kimi o da rəqiblərinə xal verməyib və ümumilikdə 32 xal qazanıb. Final görüşündə güləşçimiz Rusiya idmançısına uduzub və çempionatın gümüş medalına yiyələnib.

## Ulduz futbolçu 3-cü yer uğrunda matçdan imtina etdi



Futbol üzrə Portuqaliya yığmasının kapitanı Kriştianu Ronaldu Rusiyada keçirilən Konfederasiyalar Kubokunda üçüncü yer uğrunda matçda oynamayacaq. Otuz iki yaşlı forvard öz «Facebook» səhifəsində yazıb ki, bu yaxınlarda dünyaya gələn ekiz uşaqları ilə ilk dəfə görüşmək istəyir. Əkizlər iyunun əvvəlində ABŞ-da doğulublar.

Qeyd edək ki, K.Ronaldu bu turnirdə iki qol vurub və üç dəfə matçın ən yaxşı oyunçusu seçilib. Portuqaliyalılar iyunun 28-də Kazanda yarımfinal mərhələsində matçdan sonrakı penaltilər seriyasında Çili yığmasına uduzaraq, əsas mükafat uğrunda mübarizədən kənarlaşıblar. Fernandu Santuşun yetirmələri iyulun 2-də turnirdə son matçlarını keçirəcəklər. Onlar Almaniya-Meksika görüşündə uduzan komanda ilə bürünc mükafat uğrunda təsəlliverici finalda qarşılaşacaqlar.

## Azərbaycan birinciliyinin qalibləri müəyyənləşib

Velosiped idmanının şose növü üzrə yeniyetmə və gənclər arasında Azərbaycan birinciliyinə yekun vurulub. Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edilən və 100-ə yaxın idmançının iştirak etdiyi yarışın sonuncu günündə gənclər arasında qrup ötüşməsi üzrə qaliblər müəyyənləşib.

İsmayıllıda güclü yağış altında mübarizə aparan velosipedçilər 90 km məsafə qət ediblər. Finişi hamıdan tez Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped məktəbinin nümayəndəsi İvan Orlov keçib. 8 saylı Olimpiya Məktəbinin üzvləri Mikayıl Səfərli və Xankişi İsgəndərov isə 2-3-cü yerləri tutublar.

Qeyd edək ki, Azərbaycan birinciliyinin nəticələri Beynəlxalq Velosipedçilər İttifaqına (UCI) da göndəriləcək və idmançıların reytinq cədvəlində öz əksini tapacaq.



## Taekvondo üzrə yığma komandamız dünya çempionatında

Koreya Respublikasında taekvondo üzrə dünya çempionatı davam edir. Çempionatda Azərbaycanın taekvondo üzrə yığma komandası uğurlu çıxışını davam etdirir. Yarışın altıncı günündə millimizin üzvü Məhəmməd Məmmədov (63 kq) ən azı bürünc medalı təmin edib. İyunun 29-da dayanq üzərinə çıxan təmsilçimiz Özbəkistan idmançısı Sərdar Tahirovu (10:3), Seneqal idmançısı Maktar Əl Məhəmməd Diaonu (26:6) və portuqaliyalı Nuno Costanı (35:17) məğlub edib. Yarımfinala vəsiqə uğrunda Rusiya təmsilçisi Bolat İzutdinovla döyüşən M.Məhəmmədov rəqibinə 11:7 hesabı ilə qalib gəlib. Yeniyetmələr arasında dünya və Avropa çempionatlarının mükafatçısı finala vəsiqə uğrunda qarşılaşmada rəqibi iranlı idmançı Mirhashem Hosseini olacaq. Yarımfinal və final döyüşləri bu gün keçiriləcək.



Yarışların sonuncu günündə «Bakı-2015»in və «Bakı-2017»nin çempionu, ötən ilin Avropa çempionu, dünya kubokunun ikiqat sahibi Milad Beigi Hərçəqani (80 kq) turnirdə ilk döyüşünə çıxacaq.

# mozaika

mədəniyyət

## Azərbaycanlı müğənni «La-Skala»da baş rol oynayacaq



Milanın «La-Skala» Opera Teatrı 2017/2018-ci illər mövsümünü açıqlayıb. Yeni mövsüm dekabrın 7-də Umberto Cordanonun «Andre Şenye» operasının nümayişi ilə başlayacaq. Səhnə əsərində baş rolu Azərbaycanın əməkdar artisti Yusif Eyvazov ifa edəcək.

Bu çıxış müğənninin «La-Skala»da debütü olacaq. Operada Madlen de Kuanyi rolunu isə Rusiyanın xalq artisti Anna Netrebko canlandıracaq. «Andre Şenye» operası, həmçinin, dekabrın 10, 13, 16, 19 və 22-də, habelə 2018-ci il yanvarın 2-də və 5-də nümayiş etdiriləcək.

Dünya operasının ulduzu Anna Netrebko yaddaqalan obrazlar yaratmaqla yanaşı, konsert proqramları ilə də çıxış edir. Onun solo diskləri bestsellerə çevrilib. Musiqiçi haqqında çəkilmiş sənədli filmlər Avstriya, Danimarka, Almaniya, Rusiya və İsveçrədə nümayiş etdirilib.

Karyerasına İtaliyanın teatr və konsert zallarında başlayan Y.Eyvazov 2008-ci ildə Milanda Opera Müğənniləri Beynəlxalq Müsabiqəsinin Qran-pri mükafatına layiq görülüb. O, 2012-ci ildə Bakıda Vokalçıların Bülbül adına VI Beynəlxalq müsabiqəsinin qalibi olub. Y.Eyvazovun adı «Dünyanın ən yaxşı tenorları» kitabına daxil edilib.

fauna

## İmperator pinqvinləri

Antarktida buzlaqlarının 2100-cü ilə qədər əriməsi barədə xəbərdarlıqlar həqiqətdirsə, biz imperator pinqvinlərini həmişəlik itirə bilərik.

Antarktida buzlaqlarının əriməsi imperator pinqvinlərini çoxalma və qidalanma məkanlarından məhrum edərək, onların mövcudluğunu təhlükə altına qoya bilər.

Yeni proqnoz göstərir ki, əsrin sonuna doğru, yəni cəmi üç nəsil sonra imperator pinqvinlərinin populyasiyası 99 faiz azala bilər. ABŞ-ın Okeanoqrafiya İnstitutunun mütəxəssisi, bioloq Stefani Jenuvriyer hesab edir ki, imperator pinqvinləri nəsli kəsilməkdə olan növlər haqqında qanunun himayəsi ilə qorunmalıdır.

İmperator pinqvinləri ilə dəniz buzlağı arasında əlaqə çox kövrəkdir. Dəniz buzlağı azalarsa, quşlar çoxalma və ov yerlərindən məhrum olacaq. Buzun həcminin həddindən çox olması yaşlı fərdləri sürəkli ov axtarmağa vadar edəcək, quş balaları da lazımi qədər qida ilə təmin olunmayacaq.

Alimlər pinqvinlərin optimal buzlaq şəraiti olan yerlərə miqrasiya etmək bacarığını öyrəniblər. Onlar pinqvinlərin davranışını, məskunlaşmanın məsafəsini və dəniz buzlağının həcmini nəzərə alaraq, bu quşların 54 populyasiyasının məskunlaşma modellərini yaradıblar.

Modelləşdirməyə görə, populyasiyalar 2036-cı ilə qədər öz sayını qoruyub saxlayacaq. Sonra pinqvinləri on il sürən «ekoloji qurtuluş» dövrü gözləyir. Amma pinqvinlər necə məskunlaşırsa-məskunlaşsın, 2046-cı ildən başlayaraq populyasiyalar yenə də azalmağa başlayacaq. Bütün miqrasiya ssenariləri göstərir ki, 2100-cü ilə qədər pinqvinlərin sayı 40-99 faiz azalacaq.



sağlam həyat tərzi

## Dəniz suyu loğmandır

Yay istirahətini keçirmək üçün ən çox üz tutulan ünvanlardan biri də dəniz sahilləridir. Çimərlik mövsümündə dənizdə çimmək çox faydalıdır. Dəniz suyunun tərkibi qanın tərkibinə xeyli yaxındır.

Suyun tərkibində olan mikroelementlərin müxtəlifliyi orqanizmə şəfaverici təsir göstərir. Məsələn, maqnezium immuniteti bərpa edir, kalsium sümükləri möhkəmləndirir, yod orqanizmin mübadilə prosesini, kalium qan təzyiqini normalaşdırır, brom sinirləri sakitləşdirir. Çimərkən mübadilə prosesinin fəallaşması hesabına orqanizmdə bir çox müsbət dəyişikliklər baş verir. Dəri örtüyünün məsamələri təmizlənir, mübadilə prosesləri sürətlənir, zərərli maddələr kənarlaşır, orqanizm bərpa olunur və cavanlaşır. Əbəs yerə dənizdə üzməyi damarların möhkəmləndirilməsi və əzələlərin rahatlaşmasına yönəldilmiş professional masajla eyniləşdirmirlər. Suyun temperaturu həmişə bədənin temperaturundan aşağı olduğuna görə, orqanizm xarici mühitə uyğunlaşmağa çalışır. Bədən hərarəti azalır, damarlar daralır, xarici temperatura öyrəşəndən sonra damarlar yenidən genişlənir. Bu, nəinki damarları möhkəmləndirir, həm də mübadilə sistemini sürətləndirir, arıqlamağa kömək edir.

Talassoterapiya dəniz və dəniz məhsulları ilə kompleks müalicədən, çimmə, hidromasaj, müalicəvi palçıq və yosun sarğıları kimi müalicəvi və profilaktik prosedurlardan ibarətdir. Xroniki yorğunluq, stress, damar və oynaq xəstəliklərində, sellülitin ağır formalarında olduqca faydalı təsirə malikdir.



Təcrübə göstərir ki, dənizdə çiməndən sonra bədəndə olan cızıq və çapıqlar tez sağalır, hematoma və göyərtilər itir. Həmin keyfiyyətlərinə görə ağciyər xəstəlikləri, səs tellərinin bərpası və bütün növ boğaz xəstəlikləri zamanı dəniz suyu məsləhət görülür.

Üzgüçülüklə məşğul olmaq istisnasız olaraq orqanizmin bütün əzələlərini möhkəmləndirir. Bu, nəinki fitnes, həm də əhval-ruhiyyəni qaldırmaq üçün əla vasitədir.

Dəniz kənarında qəbul edilən hava orqanizmi brom və maqnezium ionları ilə zənginləşdirir. Yod hissəcikləri ilə doymuş oksigen isə ağciyər xəstəliklərinin müalicəsində çox faydalı təsir göstərir.

kainat

## Yerin maqnit qütbləri 770 min il bundan əvvəl dəyişib

Yapon alimləri 770 min il bundan əvvəl Yerin maqnit qütblərinin indikinin əksinə olaraq dəyişməsini sübut edən dəlillər aşkar ediblər. Bu barədə NHK telekanalının yaydığı məlumatda bildirilir ki, Çiba prefekturasında yerləşən Yoroqava çayı yaxınlığında qütblərin yerini dəyişməsi vaxtını təsdiq edən geoloji qatın nümunələri aşkar edilib. Maqnit şüalanması almış bu nümunələrin təhlili təsdiq edir ki, 770 min il bundan əvvəl Yerin Cənub maqnit qütbü Şimal maqnit qütbünün yerində olub. Bu nümunələr göstərir ki, təqribən 770 min il bundan əvvəl həqiqətən də yerin maqnit qütbləri yerlərini dəyişiblər.

Geoloji dövrlər və onların daxilindəki yaruslar, qaydaya görə, həmin geoloji qatın tapıldığı coğrafi yerin adına uyğun olaraq təyin edilir. Bu qaydanı əsas götürən yapon alimləri cari ilin iyununda Şiba prefekturasını 770-120 min il bundan əvvəlki dövrü adlandırmaq üçün namizəd olaraq irəli sürmək niyyətindədirlər. Bu təklifin qəbul ediləcəyi təqdirdə, həmin dövrün Çibanaium adlandırılacağı gözlənilir.

Çiba prefekturası ilə yanaşı, həmin dövrü adlandırmaq iddiası ilə İtaliyanın iki şəhəri də çıxış edir. Lakin yapon alimlərin qənaətinə görə, Çiba prefekturasındakı tapıntı həmin dövrdə baş vermiş inqilabi dəyişikliyi daha dəqiq şəkildə özündə əks etdirir. Əgər həmin geoloji dövr bu adı alarsa, ilk dəfə olaraq geoloji dövr Asiyada yerləşən məskənə görə adlandırılacaq.

**Müdriklər deyib ki...**



*«Orta insan vaxtı necə öldürməyin dərdini çəkir, istedadlı insan isə vaxtdan istifadə etməyə can atır».*

*Artur Şopenhauer (1788-1860)*